

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bayrağımız, qürurumuz




4

SƏS
№ 206 (6888)
7 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Böyük Qayıdış sürətlənir!



3

# "Qulaqburması" vəd edən QIRMIZI XƏTT



5

## Boşanmalar pik həddə çatıb: SƏBƏB NƏDİR?



7

## Gözəgörünməz terror!




9

## Bizim teatr və konsert anlayışımız...



12

## Pambıq əkirik, amma pambıq məhsullarını xaricdən alırıq



15

## Ölüm yelləncəyinin müştəriləri: onları nə və necə öldürür?



12

# “Xorvatiya Azərbaycanın bu təsisatlarla əməkdaşlığını daim dəstəkləyir”



*Prezident İlham Əliyevin Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ilə görüşü olub*





Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə təkbətək görüşü olub. Sonra nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin nahar əsnasında geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, energetika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Hökumətlərarası komissiyanın iclasının tezliklə keçirilməsinin və bu çərçivədə iki ölkənin işgüzar dairələri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

Xorvatiyanın minalardan əziyyət çəkən ölkə olaraq, Azərbaycana bu sahədə dəstək vermək niyyəti müsbət qarşılandı, minaların təmizlənməsi sahəsində təcrübə mübadiləsinin və əməkdaşlığın vacibliyi qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin Xorvatiyanın Avropa İttifaqına və NATO-ya üzv ölkə olaraq, Azərbaycanın bu təsisatlarla əməkdaşlığını daim dəstəklədiyi vurğulandı.



# “Ölkələrimiz arasında turizm əlaqələrinin genişləndirilməsi üçün böyük imkanlar var”

*Prezident İlham Əliyev Koreya Respublikasının Ticarət və Sənaye Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Prezident İlham Əliyev noyabrın 6-da Koreya Respublikasının Ticarət və Sənaye Palatasının və “SK Group” şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Çey Tae-von ölkəmizdə sonuncu dəfə 12 il əvvəl olduğunu qeyd edərək, ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda baş verən inkişaf proseslərinin və qazanılan nailiyyətlərin onda dərin təəssürat oyatdığını dedi, bununla bağlı təbriklərini çatdırdı. Qonaq Azərbaycan ilə Koreya Respublikası arasında müxtəlif istiqamətlərdə iqtisadi əməkdaşlıq imkanlarını qeyd etdi.

Xüsusilə işğaldan azad edilmiş ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasının tətbiqi ilə bağlı Koreya Respublikası şirkətinin təcrübəsi, Azərbaycanın zəngin bərpaolunan enerji potensialının reallaşdırılması, həmçinin ölkəmizin böyük mineral ehtiyatları, informasiya-kommunikasiya texnologiyaları, təhsil və insan kapitalının inkişafı sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Ölkələrimiz arasında turizm əlaqələrinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, 1953-cü ildə təsis olunan və baş ofisi Seul şəhərində yerləşən “SK Group” Koreya Respublikasının ikinci ən böyük şirkətlər qrupudur. Şirkətin ötənilki gəliri 150,9 milyard, aktivlərinin həcmi isə 246,9 milyard ABŞ dollarıdır. Qlobal miqyasda törəmə şirkətlərinin və filiallarının sayı 512, dünya üzrə əlaqəli şirkətlərinin sayı isə 198 olan “SK Group”un müxtəlif ölkələrdə 100 mindən çox işçisi var. Şirkət energetika və kimya, informasiya-kommunikasiya texnologiyaları, yarımkeçiricilər və qabaqcıl materiallar, logistika, xidmətlər, biosəhiyyə və əczaçılıq istiqamətlərində fəaliyyət göstərir.



# Ukraynalı jurnalist: “Zəfər Günü hər zaman Azərbaycanın yanında olan Ukraynanın da bayramıdır”

***Azərbaycanın 44 günlük müharibə nəticəsində qazandığı Qələbəsi ədalətin və beynəlxalq hüququn təntənəsidir. Hesab edirəm ki, bu, təkcə Azərbaycanın deyil, həm də hər zaman Azərbaycanın yanında olan Ukraynanın bayramıdır. Bu, beynəlxalq ictimaiyyət üçün, xüsusən də beynəlxalq hüququn normalarına və dövlətlərin suverenliyinə, humanizm dəyərlərinə hörmət etməyin nə qədər vacib olduğunu dərk edən hər bir insan, xalq üçün bayramdır.***

Bu sözləri AZƏRTAC-a açıqlamasında ukraynalı jurnalist Marına Qonçaruk söyləyib.

Azərbaycanın 44 günlük müharibədə nəticəsində qazandığı Qələbənin ildönümünü qeyd etdiyini vurğulayan jurnalist deyib: “Biz Azərbaycan üçün özümüzü xoşbəxt hiss edirik, hər zaman Azərbaycanın yanındayıq. Azərbaycanın suverenliyinin bərpasına ürəkdən sevinirik. Azərbaycanda baş verən hadisələri, Qarabağın necə bərpa olunduğunu, bu ərazilərin necə yenidən tikildiyini, orada həyatın necə yaxşılaşdığını diqqətlə izləyirik. Oraya mədəni-ədəbi həyat qayıdır və təbii ki, bütün bunlar Ukrayna-Azərbaycan münasibətlərində özünü göstərir”.

Şuşa Şəhəri Gününü özləri üçün mühüm bayram hesab edən ukraynalı jurnalist bildirib: “Şuşa mədəniyyət paytaxtı kimi dünyaya Ukrayna-Azərbaycan münasibətlərində də mühüm rol oynamış görkəmli mədəniyyət, incəsənət, diplomatiya xadimləri bəxş etmişdir. Ukraynada şuşalıların Ukrayna-Azərbaycan münasibətlərinə verdiyi töhfəni xatırlayır və yüksək qiymətləndirirlər”.

# Böyük Qayıdış sürətlənir!

44 günlük müharibəni şanlı qələbə ilə başa çatdırdıqdan sonra Azərbaycan dövlətinin qarşısına qoyduğu milli prioritetlərdən biri də işğaldan azad etdiyi torpaqlara tezliklə Böyük qayıdışı gerçəkləşdirmək idi. Buna görə də Vətən müharibəsindən dərhal sonra tarixi ərazilərimizdə geniş quruculuq və bərpa işlərinə start verildi. Qarabağa və Şərqi Zəngəzura yenidən həyatın qaytarılması üçün birbaşa dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti və diqqəti altında bu ərazilərdə dünyada misli görünməmiş meqalayihələrin icrasına başlanıldı.

Prezident İlham Əliyevin zəfərdən ötən bu üç illik qısa zaman kəsiyində mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər etməsi, erməni vəhşilərinin yerləyeksan etdiyi qədim şəhərlərimizin yeni bünövrələrini qoyması, yeni yolların, tunellərin, beynəlxalq hava limanlarının təməllərini atması, bütün infrastrukturu başdan yaratması Böyük qayıdışın tezliklə reallaşdırılmasına



mühüm təkan verdi.

Azərbaycan ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri öz iqtisadiyyatının gücü sayəsində yenidən qurur, bu ərazilərdə irimiqyaslı müasir infrastruktur layihələri icra edir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş bu proqram Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir və müstəqil Azərbaycan tarixinə Qarabağın yenidən qurulmasını tənzimləyir. Elmi cəhətdən də əsaslandırılmış mükəmməl sənəd olan Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Dövlət proqramı 2022-2026-cı illəri əhatə edir. Proqramda deyilir ki, Azərbaycan hökuməti 2027-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzurda 280 min ha ərazinin minalardan təmizlənməsini planlaşdırır. Dövlət Proqramında qeyd olunur ki, 2020-2022-ci illərdə 57,6 min ha ərazi minalardan təmizlənib.

Sənəddə qeyd olunan planlara əsasən, 2024-cü ildə Laçın Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. 2026-c ildə qədər Ağdam-Xankəndi qaz kəməri tikiləcək, sərhədə keçid məntəqələri fəaliyyətə başlayacaq. 2026-cı ildək Qarabağ və Şərqi Zəngəzura 10 min 270 ailə, 2027-ci ilə qədər – 34 min 500 ailə köçürüləcək. 2027-ci ilədək burada 34,5 min mənzil və fərdi yaşayış evi inşa ediləcək. Bu vaxta qədər Qarabağ və Şərqi Zəngəzurda hərbi infrastruktur möhkəmləndiriləcək, burada həmçinin enerji, nəqliyyat, idman, sosial və digər infrastruktur inşa olunacaq. 2026-cı ilə qədər burada 197 məktəbəqədər və ümumi təhsil müəssisəsi tikiləcək və bərpa ediləcək, 2027-ci ilədək isə regionda ali məktəbin bir filialı fəaliyyətə başlayaq, DOST mərkəzlərinin 7 filialı açılacaq. Böyük Qayıdışa dair I Dövlət Proqramı ancaq bu ərazilərə insanları qaytarmaqla kifayətlənmir. Proqramda həm də dayanıqlı icmaların yaradılması, sahibkarlıq fəaliyyəti, gələcəkdə məşğulluğun təmin edilməsi və s. kimi kompleks məqsədlər nəzərdə tutulur.



## HƏDƏFLƏR REALLIĞA ÇEVRİLİR

Dövlət başçısı İlham Əliyevin sentyabrın 28-də Cəbrayıl və Zəngilan rayonlarına səfəri Böyük Qayıdışa doğru növbəti addım kimi dəyərləndirilir. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tarixi Zəfərimizdən sonra qarşıda dayanan hədəfləri açıqlayarkən bildirmişdir ki, planlarımız böyükdür. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur: "Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər



yerinə yetirilsin".

Azərbaycan dövləti bütün bu işləri öz daxili imkanları hesabına həyata keçirir. Hər zaman bir-birinə dəstək olan Azərbaycan və Türkiyənin Zəngilanda birgə investisiya layihəsini həyata keçirməsi də təqdirəlayiqdir. Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçirilən "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Görülən işlərin, həyata keçirilən infrastruktur layihələrinin hamısını sadalamaq mümkün deyil. İşğaldan azad edilmiş ərazilərimizin "ağıllı şəhər" və "ağıllı kənd" layihələri əsasında yenidən qurulması dövlətimizin yeniliklərə, təkmilləməyə nə qədər maraq göstərdiyini nümayiş etdirir. "Ağıllı kənd" layihəsinin ilk iştirakçısı Zəngilanın Ağalı kəndi oldu. Ötən il Ağalı kəndi sakinlərini qarşıladı. Hazırda bütün işğaldan azad edilmiş ərazilərimizin hər biri genişmiqyaslı bərpa-quruculuq işləri ilə diqqətdədir. Dövlət başçısı İlham Əliyev işğaldan azad edilmiş ərazilərdən lazımi şəraitin yaradılması üçün bütün addımları atır. Bugünümüz üçün yeganə rəqib zamandır. Tezliklə bərpa işləri sona çatacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar, Azərbaycanın həyatında sözün əsl mənasında yeni mərhələ başlayacaq. Bu mərhələ həmin ərazilərin malik olduğu potensialdan səmərəli istifadə edərək dayanıqlı inkişafın təmin edilməsi olacaq.

*İLHAM ƏLİYEV: "Biz Böyük Qayıdış Proqramını icra edirik. Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb"*

Bəli, atılan hər bir addım bir məqsədə xidmət edir: Azərbaycan iqtisadiyyatının dayanıqlığı təmin edilməklə qarşıya çıxan hər bir çətinlik anındaca aradan qaldırılsın. Hədəflərə vaxtında və yüksək səviyyədə nail olmaq üçün bütün qüvvə və bacarıqlar səfərbər edilir. Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında qeyd olunduğu kimi, necə ki, "Dəmir yumruq" nümayiş etdirib torpaqlarımızı işğaldan azad etdik, eyni zamanda, bu birlik, həmrəylik əsasında bərpa və quruculuq işlərini uğurla başa çatdıracaq, soydaşlarımızın Böyük Qayıdışı həyata keçiriləcək.

## AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR




Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında bildirib ki, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə gələn il ən azı 2,4 milyard ABŞ dollarının ayrılması nəzərdə tutulur: "Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur".

Böyük Qayıdış Proqramının icra olunduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur".

Bəli, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir.

## DÖVLƏT BAŞÇIMIZIN DEDİYİ KİMİ: "TEZLİKLƏ BÜTÜN KEÇMİŞ KÖÇKÜNLƏR QAYITSINLAR DƏDƏ-BABA TORPAQLARINA VƏ BİZ ƏLİMİZDƏN GƏLƏNİ EDƏCƏYİK Kİ, BUNU TEZLƏŞDİRƏK"

Böyük Qayıdışın ilk addımı olaraq Ağalı kəndindən - Şərqi Zəngəzurun Zəngilan rayonuna köçürülüb. Sentyabrın 7-də isə Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsinə başlanılıb və Ağalı kəndinə Böyük Qayıdışa uyğun olaraq daha 25 ailə (125 nəfər) köçürüb. On iki ailədən ibarət birinci köç karvanı Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən yola düşüb. Sentyabrın 9-da isə ikinci köç karvanı ilə digər 13 ailənin məcburi köçkünlük həyatı başa çatıb.Zəngilan rayonunun Ağalı kəndinə Böyük Qayıdışın növbəti 3-cü mərhələsi başlayıb. Bu mərhələdə növbəti 20 ailə, 94 nəfər Zəngilanın Ağalı kəndinə köçürülür. Onlardan 50 nəfərdən ibarət 10 ailə bu gün yola düşüb, 44 nəfərdən ibarət 10 ailə isə mart ayının 3-də köçürülüb. Hər zaman qeyd etdiyimiz kimi, bütün bu işlər ölkəmizin daxili imkanları hesabına həyata keçirilir. Bu prosesə yeganə rəqib zamandır. Bu baxımdan ki, ərazilərdə bərpa-quruculuq işlərinin sürəti minalardan təmizlənmə prosesindən asılıdır. Bu isə böyük vaxt itkisi deməkdir. Azərbaycanın iqtisadi və maliyyə imkanları hər bir hədəfə zamanında və yüksək səviyyədə nail olmağa əsas verir.

Göründüyü kimi, günümüzün reallığı deməyə əsas verir ki, regionda yaranan yeni şərait ölkəmiz və bölgə üçün yaxşı perspektivlər vəd edir və Prezident İlham Əliyevin vurğuladığı kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. Və arzuları gerçəyə çevirəcək Böyük Qayıdışa dair I Dövlət Proqramında əks olunan hədəf, məqsəd və vəzifələrin icrası bölgədə məskunlaşacaq əhalinin layiqli həyat şəraitini təmin edəcək və bu nəzərdə tutulan tədbirlər strateji hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcəkdir. Həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir və Azərbaycan düzgün yoldadır, uğurlu gələcəyə inamla addımlayır.

**RƏFİQƏ HÜSEYNOVA**

# Bayrağımız, qürurumuz - TARİX




**“Bayraq mənliyimdir, bayraq kimliyim,**
**Bayraq – öz yurduma öz hakimliyim”**

Bayrağına və dövlətçiliyinə sahib çıxan xalqlar heç zaman başqalarının zülmü altına düşmür. Bayraq sevgisi vətən sevgisidir. Şəhid varsa torpaq var, Torpaq varsa Vətən var, Vətən varsa bayraq var. Bayraq - bir ölkəni işarələyən dövlət rəmzidir, müharibələr, inqilablar zamanı öndə, insanların başı üzərində aparılan, Vətən uğrunda şəhid olanların qəbirləri üzərinə salınan dövlət atributudur. Bayrağın üzərindəki hər rəng və simvol bir özəl məna daşıyır. Bayraq dövlətin varlığını təsdiqləyən, milləti ucaldan, hər bir vətəndaşı qürurlandıran rəmzdir.

Azərbaycanda Dövlət Bayrağı Gününün təsis olunması və hər il təntənə ilə keçirilməsi məhz bu mənəvi dəyərdən qaynaqlanır. Üçrəngli, ağ aypara və səkkizguşəli ulduzlu bayrağımız dövlət rəmzi olaraq Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 9 noyabr tarixli iclasında qəbul olunub. Azərbaycanın dövlət bayrağı mühüm ideoloji əsasları özündə cəmləmişdir. Bütün müsəlman və türk dünyasında ilk dəfə idi ki, milli mədəni, mənəvi dəyərlərə, eyni zamanda demokratik ideallara əsaslanan bir dövlət qurulurdu. Dövlət bayrağındakı üç rəngin ifadə etdiyi məna XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipinə əsaslanırdı. Bu, Azərbaycanın görkəmli mütəfəkkiri Əli Bəy Hüseyzadənin irəli sürdüyü “Türkçülük, müasirlik və islamçılıq” prinsipi idi.

*Azərbaycanın dövlət bayrağı mühüm ideoloji əsasları özündə cəmləmişdir. Bütün müsəlman və türk dünyasında ilk dəfə idi ki, milli mədəni, mənəvi dəyərlərə, eyni zamanda demokratik ideallara əsaslanan bir dövlət qurulurdu.*

Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını bildirir, mavi rəng türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng, həm də simvolik məna daşıyır. Göy rəng XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirirdi.

Qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafa istəyi ifadə edir.

Yaşıl rəng – İslam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir.

Xalq Hərəkatı dövründə də başımızın üstündə müqəddəs üçrəngli bayrağımızı gördük, qürurlandıq, mübarizə ruhumuz artdı, məsuliyyətli olduq. Uzun illərdən sonra ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. Sovet imperiyasının hələ mövcud olduğu bir dövrdə Ulu Öndərin belə bir addım atması bütün SSRİ-də, həmçinin Azərbaycanda böyük əks-səda vermişdi. Eyni zamanda bu hadisə Azərbaycanda milli azadlıq mübarizəsində xalqa böyük ruh vermiş və xalq hərəkatını daha da qarşısı alınmaz prosesə çevirmişdi.

Sonralar Ulu Öndər, dahi şəxsiyyət Heydər Əliyev bu barədə deyirdi: “Mən belə fikirdəyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının Ali Sovetinin işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı”.

Azərbaycan Respublikasının dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri onun Dövlət bayrağı suverenliyimizin rəmzidir. 14 ildir ki, bu əlamətdar tarixi şərəflə, qürurla qeyd edirik. 2009-cu il noyabrın 17-də Azərbaycan Prezidenti cənab İlham Əliyev Dövlət Bayrağı Gününün təsis edilməsi ilə bağlı müvafiq Sərəncam imzaladı. Həmin Sərəncama əsasən, hər il ölkəmizdə noyabrın 9-u Dövlət Bayrağı Günü qeyd edilir. 2010-cu il sentyabrın 1-də ölkə başçısı İlham Əliyevin iştirakı ilə Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılışı oldu. Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan Respublikasının dövlət bayrağı dünyanın ən hündür - 162 metr bayraq dirəyində ucaldıldı. Dünyada ən hündür yerdə dalğalanan bayrağın eni 35, uzunluğu 70 metr, çəkisi isə təqribən 350 kiloqramdır. Ginnes dünya rekordları təşkilatı Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Milyonların sevdalısı olan müqəddəs Azərbaycan Bayrağı hər birimizin qürur mənbəyi, and yerimizdir. Bu müqəddəs bayraq uğrunda himnimizdə də deyildiyi kimi, minlərlə can qurban olub. 44 günlük Vətən müharibəsi xalqımızın üçrəngli bayrağa olan sonsuz məhəbbətini, bayraq ətrafında necə sıx birləşməyi bir daha göstərdi. Mübariz xalqımızın vətəndaşları öz evlərini, avtomobillərini üçrəngli Azərbaycan bayrağına bürüdü. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altındakı rəşadətli, müzəffər Azərbaycan ordusunda xidmət edən hər bir əsgərin arzusu azad olunmuş torpaqlarımıza yenidən Azərbaycan bayrağını sancmaq idi. Bu gözəl hiss, duyğu artıq reallığa çevrilib.

Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda dalğalanır. Sentyabrın 27-dən başlayaraq işğalçı Ermənistanın atdığı növbəti qanlı təxribata rəşadətli ordumuz tərəfindən layiqli cavab verildi. 30 illik səbrin, təmkinin tükəndiyi bir vaxtda xalqımız Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bir çağırışı, bir əmri ilə Qarabağ torpaqlarının Ermənistanın işğalından azad edilməsi sevincini yaşamağa başladı. Azərbaycan üçrəngli bayraqlara büründü, qürur hissi yaşadıq.

Azərbaycanın Qalib Ordusu yeni tarix yazdı. Ordumuzun böyük şücaət və xüsusi peşəkarlıqla həyata keçirdiyi döyüş əməliyyatları nəticəsində hazırda üçrəngli Azərbaycan bayrağı azad olunmuş doğma ərazilərimizdə - Füzuli, Suqovuşanda, Hadrutda, Cəbrayılda, Zəngilanda, Qubadlıda, xalqımızın tarixi birlik və qəhrəmanlıq simvolu olan Xudafərin körpüsü üzərində qürurla dalğalandı, Şuşada, Kəlbəcərdə, Laçında, Ağdərədə, Xocavənddə, Xankəndidə, Xocalıda, Əsgəran qalasında müqəddəs bayrağımız əzəli və əbədi yerini tutdu.

Müstəqillik rəmzi olan bayrağımız dalğalanmasa millət, xalq, dövlət müstəqil sayılmayacaq. 9 noyabr- dövlət bayraq günümüz mübarək olsun! Bayrağımız hər zaman yüksəklikdə olsun, çünki, bu bayraq zirvələrə yaraşan dövlət rəmzimiz, qürurumuzdur!

***V.VƏLİYEV***

# “Zəfər Günü qızıl hərflərlə tariximizə yazıldı”




“Azərbaycan tarixinin yeni möhtəşəm şanlı səhifəsi olan növbəti Zəfər gününü qeyd etmək ərəfəsindəyik. 44 günlük Vətən müharibəsi ilə Azərbaycan ordusu Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə torpaqlarımızı mənfur düşməndən azad edərək, tariximizə Zəfər Gününü yazdırdı”.

Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilov deyib.

Onun sözlərinə görə, müasir dünya hərb tarixinə yazılan qeyrət qalamız Şuşa şəhərinin azad edilməsi ilə düşmən məğlubiyyəti ilə barışaraq təslim oldu: “Bu tarix Azərbaycanın müstəqillik qazanması tarixi qədər bizlərə müqəddəs tutula biləcək bir gündür. Son 300 illik məğlubiyyət zəncirinin bizlər üçün qırıldığı bir tarixi dönüş günüdür. Bu qələbə ilə biz dünya xalqları və dövlətləri arasında öz adımızı qəhrəman, mübariz, özünə güvənən xalq olaraq qürurla yazdırdıq. 30 illik işğal dövründə Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən dərhal çıxarılması haqqında BMT-nin 4 qətnaməsi icra olunmadı. Aparıcı Beynəlxalq təşkilatların, mövcud dünya dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik bəyanatları sözdən əməlʼə keçmədi. ATƏT-in Minsk qrupunun sülh təşəbbüsləri ermənilərin lehinə vaxt uzatmaqadan başqa heç nəyə yaramadı. Bütün bunların baş verməsinə ikili standartlar əsas rol oynadı. Havadarları hesabına torpaqlarımızı işğal edən ermənilər elə onlara arxayın olaraq işğaldan əl çəkmək istəmədilər. Müdrik Ümummilli Lider Heydər Əliyevin qoyduğu təməl prinsipləri üzərində müasir güclü Azərbaycan dövləti quran Cənab Prezident İlham Əliyev torpaqlarımızın işğaldan azad olunması yolunda lazım olan bütün siyasəti layiqincə yerinə yetirərərək şanlı 8 noyabr tarixini Zəfər günü kimi qızıl hərflərlə tatiximizə əbədi yazdırdı”.

A.Xəlilov onu da bildirdi ki, Azərbaycan dünyanın etmək istəmədiyini tək başına icra etdi və işğala son qoydu: “Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan ordusu “Dəmir Yumruq“ devizi altında BMT qətnamələrini icra etdi. Bu qələbənin qazanılmasında bizə siyasi və mənəvi dəstək verən qardaş Türkiyə respubikasının da əməyi danılmazdır. Erməni havadarlarının anti Azərbaycan bəyanatları qardaş Türkiyə siyasətçilərinin layiqli cavabları ilə susduruldu. Bu gün biz xoşbəxt nəsilik ki, bu qələbəni və buna gedən şərəfli yolun canlı şahidləri olduq. Bu qələbə gələcək Azərbaycan tarixinə yazılacaq hələ çox qələblərin açarına və dönüş nöqtəsinə çevrildi. Bunu üçün xalq olaraq Ali Baş Komandanımıza, ordumuza minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, Qazilərimizə can sağlığı bəxş etsin. Şəhidlərimiz və qəhrəman döyüşçülərimizin sayəsində qazanılan bu qələbəyə görə daim onları fəxarətlə yada salacayıq. Məhz onların sayəsində və aparılan uğurlu siyasət nəticəsində bu gün Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin Xankəndində qaldırdığı üç rəngli ay ulduzlu bayrağımız vüqarla əbədi olaraq dalğalanar və dalğalanacaq!”

***Gülyana***

# Fidan-Blinken görüşündə nələr müzakirə olunub?

*Dünən Ankarada Türkiyənin XİN rəhbəri Hakan Fidanla ABŞ dövlət katibi Entoni Blinken arasında keçirilən görüşün təfərrüatları açıqlanıb. SİA “TRT Haber”ə istinadən xəbər verir ki, görüş zamanı Qəzza başda olmaqla, regional məsələlər və iki ölkə arasındakı münasibətlər müzakirə edilib.*



“Diplomatik mənbənin məlumatına görə, Hakan Fidan Blinkenə İsrailin Qəzzada mülki şəxsləri hədəf almasının və insanları köçməyə vadar etməsinin qarşısının alınmasının, eləcə də təcili atəşkəsin elan edilməsinin zəruri olduğunu vurğulayıb. Həmçinin görüş zamanı Türkiyə və ABŞ-nin Qəzzada mülki şəxslərin zərər görməməsi, humanitar yardımların davamlı və fasiləsiz çatdırılmasının təmin edilməsi məsələsində həmfikir olduqları bildirilib”, - deyə məlumatda qeyd olunub.

# “Qulaqburması” vəd edən QIRMIZI XƏTT



***Anti-Rusiya mövqeyi, rusların əleyhinə olması və Qərbyönümlü siyasəti ilə Ermənistan rəsmi Moskvanı qıcıqlandırmaqda davam edir. Rusiya Cənubi Qafqazdakı forpostunun, yəni Ermənistanın belə bir mövqeyi ilə nəinki razılaşmır, hətta rəsmilərin dili ilə, ifadəsi ilə çox kəskin bəyanatlarla çıxış edirsə, deməli, rusların səbir kasası artıq dolub. Bu isə o deməkdir ki, Rusiya tərəfindən Ermənistanın ciddi şəkildə “cəzalandırılması” hər an gözləniləndir və bunun üçün Kremlin öz rıcaqlarından istifadə edəcəyi də şübhə doğurmur.***

## Rusiya XİN rəsmisindən Ermənistana qarşı ittihamlar

Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və Ukrayna prezidentinin aparat rəhbəri Andrey Yermakın ötən ayın sonunda baş tutan görüşü, “Malta: Sülh Formulu” tədbiri çərçivəsində onların Ermənistan-Ukrayna münasibətlərini müzakirə etmələri rusların heç də ürəyincə olmayıb. Elə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın keçirdiyi son brifinqdə bu görüşü kəskin şəkildə “pisləməsi” də bu baxımdan heç də təsadüfi deyil. Bu görüşü Rusiyanın XİN nümayəndəsinin məhz nümayişkəranə şəkildə anti-Rusiya addımı hesab etdiyi də kimsədə zərrə qədər şübhə doğura bilməz. Ona görə ki, Zaxarovanın kəskin şəkildə iradlar bildirməsi başqa cür düşünməyə belə qətiyyən imkan vermir. “Əgər siz Maltada qondarma Kopenhagen formatında keçiriləcək görüşdən danışırsınızsa, biz bunu rəsmi İrəvanın nümayişkaranə anti-Rusiya jesti kimi qiymətləndiririk”, deyən Rusiya XİN nümayəndəsinin kəskin ifadələri təsdiq edir ki, İrəvanın hərəkətləri




“Aqressiv şəkildə ölkəmizə qarşı çıxanlarla nümayişkaranə oyun oynanıldığına görə, mən belə düşünürəm ki, İrəvanda, özləri özlərinə hesabat verməlidirlər”, deyərək özünün və ölkəsinin qəzəbini gizlətməyən rusiyalı diplomat Ermənistan hakimiyyətini çəkinmədən, özü də açıq-aşkar şəkildə hədəfə alıb və qınayıb. O, Ermənistanın indiki rəhbərliyinin, bir müddət əvvəl respublikanın sabitliyi və firavanlığı üçün ən mühüm amil adlandırdığı müttəfiqlik münasibətlərini özü qəsdən pozmaqda olduğunu bildirib. Bu isə artıq o deməkdir ki, rəsmi Moskvanı artıq kifayət qədər qıcıqlandırıb.

Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın Kiyevə səfərindən, eləcə də Ermənistan Milli Assambleyasının sədri Alen Simonyanla Ukrayna Ali Radasının sədri Ruslan Stefançuk arasında Dublində son ünsiyyətdən, həmçinin Qranadada Nikol Paşinyan və Ukrayna prezidenti Vladimir Zelenski arasında söhbətdən Rusiya tərəfinin son dərəcə narazı qaldığı da Rusiyanın qıcıqlandığını təsdiq edir.



Moskva sözün əsl mənasında artıq Ermənistanla nəinki müttəfiqlik münasibətlərini pozmaq niyyətindədir, hətta İrəvanı da hədəf seçib.

Əgər bir ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi belə bir şəkildə mühakimə xarakterli çıxış edirsə, rəsmi şəkildə qarşı tərəfi ittiham edirsə, deməli, həqiqətən də həmin ölkənin səbr kəsası dolub və hətta bu, açıq-aşkar, çəkinmədən də bəyan edilir.

## İrəvana edilən ciddi xəbərdarlıq

Rusiya tərəfi təkcə ittihamlarla artıq kifayətlənmir və bu ölkənin diplomatının hal-hazırda Ermənistanda rusofobiyanın olduğu barədə xəbərdarlıq etməsi fonunda, Kremlin İrəvana hədə kəsməsini də müşahidə edirik. Ermənistan mediasında rusofobiyanın genişlənməkdə olduğuna işarə edən Mariya Zaxarovanın xəbərdarlığı, eyni zamanda, bunun haradan qaynaqlanması, eləcə də haradan maliyyələşdirilməsi barədə dedikləri isə, Rusiya tərəfinin kifayət qədər araşdırma apardığını və bu araşdırmaların nəticələri fonunda da qəzəbini ortaya qoyur. “Əgər orada hesab edirlərsə ki, bunların haqqını kimin ödədiyini biz bilmirik, yanılırlar, çünki biz bilirik”, deyə rusiyalı diplomatın qeyd etməsi isə bir ehyamdır. Yəni, rəsmi İrəvana açıq şəkildə bildirilir ki, hətta erməni mediasının belə Qərb tərəfindən maliyyələşdirildiyi barədə Rusiya xəbərdardır. Bir sözlə, Zaxarova öz çıxışı zamanı heç nəyi gizlətmədən çox kəskin şəkildə öz ölkəsinin mövqeyini, daha dəqiq desək, Rusiyanın səbr kəsasının dolduğunu və Ermənistanın hədəfdə olduğunu bildirib, hansıki bu ermənilər üçün artıq “qırmızı xətt” hesab oluna bilər.

Doğrudur, rəsmi İrəvan bu vaxta qədər Moskvanı qıcıqlandıracaq kifayət qədər hərəkətlərə yol verib və bu hərəkətlərə görə Ermənistan dəfələrlə Rusiya tərəfində “məzəmmət” edilib. Yəni, indi səsləndirilənlər heç də Rusiyanın öz forpostuna ilk və yeganə iddiası, iradı deyil və rusların ermənilərə “qulaqburması” verməsi üçün Ermənistan tərəfi bu vaxta qədər qarşı tərəfə kifayət qədər səbəb, lazımi qədər əsas verib və Kremlin indiyə qədər olan sətiraltı xəbərdarlıqları da bu baxımdan heç də təsadüfi və səbəbsiz deyildi. Amma artıq vəziyyət keç də indiyə qədərki vəziyyət deyil və görünür, Ermənistan xüsusən də son üç ildə, yəni İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra, Qərblə Rusiya arasında qalaraq dondan-dona girdiyinə, birbaşa Kreml əleyhinə, rusların əleyhinə mövqe sərgilədiyinə görə, necə deyərlər, rəsmi Moskvanı tamamilə özündə çıxarıb. Hətta elə bir həddə, elə səviyyədə özündən çıxarıb ki, rəsmilərin bəyanatlarında da aqressivlik belə açıq-aşkar hiss olunur.

## Rusiyanın 102-ci hərbi bazası ilə bağlı rezonans

“The Wall Street Journal” üçün verdiyi müsahibəsində Nikol Paşinyanın ruslara qarşı tamamilə “həddini aşması” Rusiya tərəfindən qəzəblə qarşılanıb. Sözügedən nəşrə müsahibəsində erməni baş nazirin, Gümrüdə Rusiya hərbi bazasına ehtiyac olduğunu şübhə altına alan rezonanslı bəyanatı, yəni rəsmi İrəvanın bu həddə həyasızlığı Moskvanın diqqətindən kənarda qalmayıb və hətta Putinin mətbuat katibi Dmitri Peskovun belə reaksiyası özünü çox gözlətməyib, çünki o dərhal cavab verməyi lazım bilib. Hətta son dərəcə həssas olan bu mövzu Rusiya mətbuatında da fəal şəkildə müzakirə olunmaqdadır. Diqqətə çatdıraq ki, “İzvestiya” qəzeti şərh üçün hətta Dövlət Dumasına da müraciət edib. Dövlət Dumasının Müdafiə Komitəsinin sədr müavini Yuri Şvıtkin də Rusiyanın 102-ci hərbi bazasının Gümrüdə yerləşdirilməsi ilə bağlı sazişin əsas müddəalarını açıqlayaraq bildirib ki, Ermənistan birtərəfli qaydada bildirişlə sözügedən hərbi bazanın öz ərazisindən çıxarılmasını qətiyyən tələb edə bilməz. “Rusiya Federasiyası ilə Ermənistan Respublikası arasında bağlanmış müqaviləyə əsasən, tərəflərdən biri bu müddətin bitməsinə ən azı altı ay qalmış, müqavilənin növbəti müddətində digər tərəfin onun fəaliyyətinə xitam vermək niyyəti barədə yazılı şəkildə xəbərdarlıq etmədiyi təqdirdə, müqavilə avtomatik olaraq növbəti beş illik müddətə uzadılır. Tərəflərdən birinin təşəbbüsü və qarşılıqlı razılaşma əsasında bu müqavilənin müddəalarına yenidən baxıla bilər”, deyə Yuri Şvıtkin “İzvestiya” nəşrinə bildirib və bununla da kəskin şəkildə qarşı tərəfə çatdırılıb ki, Rusiyanın 102-ci hərbi bazasının çıxarılmasına nail ola bilməzlər. Daha dəqiq desək, bir sözlə, Ermənistana açıq şəkildə bəyan edilib ki, Rusiya hərbi mövcudluğundan qurtulmaq cəhdləri heç müzakirə predmeti belə deyil.




## Ermənistana ünvanlanan kəskin mesajlar

Ermənistana qarşı daha bir kəskin mesajı Dövlət Dumasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Leonid Slutski verib. O, TASS agentliyinə bildirib ki, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statusu məsələsindən sonra Ermənistanın Rusiya ilə dövlətlərarası münasibətlərdən dəm vurması, saziş imzalamaq təklifi, döyüşdən sonra əl yelləməyə bənzəyir və bu artıq faydasızdır. Daha dəqiq desək, Ermənistanın Roma statusunu ratifkasiya etməsinin ikitərəfli münasibətlər üçün mənfi nəticələrə səbəb olacağı qarşı tərəfə çatdırılıb.

Ardı Səh. 6

# “Qulaqburması” vəd edən QIRMIZI XƏTT



*Avropa İttifaqının Ermənistanda öz missiyasını genişləndirmək niyyəti məlum olduqdan və bu missiyanın İrəvan tərəfindən dəvət olunduğu bəlli olduqdan sonra göründü ki, Rusiya tərəfi ermənilərin bu davranışını, bu hərəkətini qəbul edə, həzm edə bilmir.*

Əvvəli-Səh-5

Yəni, qısa şəkildə bildirib ki, etdikləri xəyanətkarlıqdan sonra hansısa müttəfiqlikdən, münasibətlərdən ermənilərin dəm vurmaları, yaxud bu barədə danışıqlar belə bayağı hesab olunur və bu münasibətlərə ümid etməyə dəyməz.

Onsuz da Avropa İttifaqı missiyasının İrəvanda olması eyni kontekstdə Ermənistan-Rusiya münasibətlərinə bu vaxta qədər də təsirsiz ötüşməmişdi. Daha dəqiq desək, sözügedən missiyanın Ermənistan tərəfindən dəvət olunması və həmin ölkədə olması rusları qətiyyən qane etmirdi. Üstəlik, həmin o Avropa İttifaqı missiyası barədə ittihamlar da var. “Avropa İttifaqının Ermənistandakı missiyası monitorinq adı altında Moskva və Tehrana qarşı kəşfiyyat məlumatları toplayır”, deyə rusiyalı diplomat Mariya Zaxarova Avropa İttifaqı missiyasını Rusiya və İrana qarşı kəşfiyyat məlumatları toplamaqda da ittiham edib. Deməli, çoxdandır ki, ortada narazılıq var idi və məhz Rusiyaya qarşı kəşfiyyat məlumatları toplanılması üçün Ermənistanın şans yaratması rusları artıq özündən çıxarıbmış. Ümumiyyətlə, Avropa İttifaqının Ermənistanda öz missiyasını genişləndirmək niyyəti məlum olduqdan və bu missiyanın İrəvan tərəfindən dəvət olunduğu bəlli olduqdan sonra göründü ki, Rusiya tərəfi ermənilərin bu davranışını, bu hərəkətini qəbul edə, həzm edə bilmir. Bu da əlbəttə ki, səbəbsiz ola bilməz və təkcə Rusiya XİN nümayəndəsinin dediyi həmin o kəşfiyyat məlumatları məsələsi ilə də bağlı deyil. Deməli, diqqət cəlb edəcək hansısa məqamlar var və nəticə çıxarmaq üçün məntiqi əsaslar mövcuddur.

### Təzyiq alətlərindən və təsir rıçaqlarından istifadə etmək niyyəti

Moskvanın narahatlığı ilk növbədə Rusiyanın Ermənistandakı mövqelərinin zəifləməsi ilə bağlı müəyyən narahatlıqlardan xəbər verir. Yəni, hansısa səbəblərdən asılı olaraq, Rusiyanın mövqeyinin Ermənistanda zəiflədiyi qənaətinin rəsmi Moskvanı narahat etməyə başladığı müşahidə edilir. Digər tərəfdən də bu,



Moskvanın artıq İrəvana təzyiq alətlərindən və təsir rıçaqlarından istifadə etməyə başlamaq niyyətində olduğunu göstərir. Bunu təsdiq edən, yəni təzyiq alətlərindən və təsir rıçaqlarından istifadəyə başlanılması niyyətini təsdiq edən faktlar artıq göz önündədir, hansıki Ermənistan tərəfindən səsləndirilən bəzi fikirlər deyilənləri isbatlayır. Məsələn, Ermənistanın “Respublika” partiyasının sədri Aram Sarkisyan öz ölkəsinin mətbuatına müsahibəsi zamanı, Hindistana məxsus avadanlıqları Rusiyanın nəqliyyat şirkətinin Ermənistana verməkdən imtina etdiyini, sonda İranın bunu reallaşdırdığını bildirib. Bundan əlavə, Paşinyan özü də belə bir ifadə işlədib ki, Rusiya 2021-ci ilin sonundan İrəvanın artıq ödədiyi silahların tədarükünü dayandırıb. Deməli, Rusiyanın Ermənistana qarşı müəyyən təzyiqlərə başlamaqda olduğu qənaətinə gəlməkdə haqlıyıq və artıq bu təsirlər görünməyə başlayır, amma ermənilər elə zənn etməsinlər ki, ruslar bundan savayı heç nə edə bilməzlər. Bu xəmirin hələ çox su aparacağı fikrində olan politoloqlar, siyasətçilər az deyil və İrəvan ümün dırnaqarası ”sürprizlərin qarşıda olduğu barədə fikirlər var.

### Rusların səbr kəsasını dolduran ermənilər “sürprizlə” qarşılaşmalı olacaqlar

Məsələ burasındadır ki, bir sıra təzyiqlər, təsirlər xaricində Rusiya hələ bu vaxta qədər Ermənistana qarşı demək olar, heç nə etməyib, çünki Kreml özünün daha təsirli rıçaqlarını işə saldığı zaman indi hiss etdikləri, rastlaşacaqları fəlakətlər fonunda heç ermənilərin gözünə də görünməyəcək və onlar daha dəhşətli aqibətlə, ağıllarına belə gəlməyən “sürprizlə” qarşılaşmalı olacaqlar. Ruslar ermənilərə qarşı bildiklərini, əllərindən gələnin hamısını bu vaxta qədər etsəydilər hayların vəziyyəti bundan dəfələrlə ağır və kəskin şəkildə pisləşməli idi. Məsələn, Moskva istəsəydi, bu vaxta qədər Ermənistana elə ciddi iqtisadi təzyiqlər edərdi ki, bunun altından rəsmi İrəvan qətiyyən çıxa bilməzdi. Yəni, ermənilərin ən acınacaqlı durumu üçün rusların təkcə iqtisadi təzyiqləri kifayət edir. Amma görünən odur ki, Rusiya indiyə qədər bu varianta əl atmayıb və çox güman ki, özlərinə “çəki-düzən” vermələri üçün ermənilərə bu zamana qədər sadəcə müəyyən şans verilib. Bir sözlə, ruslar hayların həyasızlığına bu zamana qədər səbr ediblər. Amma bu o demək deyil ki, sonsuza qədər səbr edəcəklər. Bu o demək deyil ki, Rusiyanın da səbr kəsası qətiyyən dolmayacaq, çünki ermənilərə istədiklərini etmək kimi bir imkan veriləcəyi qətiyyən mümkün deyil. Üstəlik, anti-Rusiya mövqeyinə müəyyən dəyişiklik etmələri üçün verilən vaxt da bitmək üzrədir və hayların zamanı da, şansları da tükənməkdədir. Amma verilən bu vaxtdan və şansdan ermənilərin nə dərəcədə istifadə edəcəyi, yaxud istifadə etmək niyyətində olub-olmadıqları bəlli deyil. Çünki Ermənistanda kütlə idarəedilməz haldadır və rəsmi İrəvan da, daxili auditoriyaya hesablanan ağılsız bəyanatları ilə başını girələyən erməni baş nazir Nikol Paşinya da nəticə çıxarmış kimi görünmür. Deməli, səbr kəsası dolan Rusiyanın ən yaxın zamanda məhz Ermənistana “öz yerini” göstərəcəyi, “qulaqburması” verəcəyi istənilən anda baş verə bilər. Yəni, sadalananların fonunda onu deyə bilərik ki, bütövlükdə Ermənistan və erməni cəmiyyətinin düz önündə “qırmısı xətt” artıq peyda olub.

***İnam Hacıyev***

# “Azərbaycana qarşı ikili yanaşma heç bir dövlətə başucalığı gətirə bilməz”



“44 günlük Vətən müharibəsindən sonra Azərbaycan dövləti öz şərti sərhədlərində möhkəmləndi. 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli bəyanat imzalandı. Həmin sazişə uyğun olaraq etnik ermənilərin yaşadığı bəzi ərazilərə Rusiya sülhməramlıları daxil oldu. Gözləntilər bu idi ki, Rusiya sülhməramlıları həmin bölgədə Azərbaycan və Ermənistan mülki əhalisinin birgə yaşayışının formalaşmasında dəstəkçi olacaq və silaha əl atılmayacaq”. Bu sözləri SİA-ya açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, Hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib.

Onun sözlərinə görə, təəssüf ki, rus sülhməramlıları bu missiyanı 2023-cü il 19-20 sentyabr tarixlərində baş verən antiterror tədbirlərinə qədər yerinə yetirə bilmədilər: ”Amma şərti sərhədlərimizə qədər Azərbaycan Ordusu tam yerləşib nəzarəti ələ keçirdikdən sonra erməni təxribatları dayanmadı. Razılaşmaya görə Kəlbəcər və Laçın müəyyən müddətdən sonra təhvil verilməli idi. Ermənistan tərəfindən Laçın dəhlizi vasitəsilə Xankəndi və digər ərazilərdə yerləşən ermənilərə dəstək üçün silahların daşınmasının şahidi olduq. Noyabrın 10-da imzalanan bəyannamədən təxminən 16 gün sonra noyabrın 26-da 60 nəfərdən artıq təxribatçı erməni silahlı birləşmələrinin üzvləri Azərbaycan ərazisində döyüşərək tərki-silah edildilər. Laçın şəhəri boşaldılana qədər ərazilərimizə minaların daşınmasının şahidi olduq”.

Sədr sözlərinə davam edərək bildirib ki, 2020-ci ildə atəşkəs əldə olunsa da, mülki əhali əleyhinə torpaqlarımızda basdırılmış minaların əksəriyyəti 2021-ci ildə Ermənistanda istehsal edildiyi müəyyən olunub: ”Deməli, Ermənistan yenə də Azərbaycan xalqına qarşı çirkin niyyətlərini davam etdirirdi. Bununla yanaşı, beynəlxalq ictimaiyyətdə Azərbaycana qarşı böyük təpki var idi. Bəzi dövlətlərin senatlarının, parlamentlərinin qətnamələri, BMT TŞ-da Azərbaycanla bağlı məsələlərin qaldırılması ilə qarşılaşdıq. Azərbaycana qarşı nifrət dili ilə danışmağı davam etdirdilər. Nəticədə ölkənin konstitusion quruluşunun tam bərqərar olmasının dinc yolla bərqərar olmasının qeyri-mümkün olduğunu görən Azərbaycan bu ilin 19-20 sentyabrında antiterror tədbirləri həyata keçirdi. Hədəfimiz yalnız düşmənin silahlı birləşmələri və obyektləri idi. Mülki əhaliyə xəsarət yetirmədən bir gündə separatçıların dizini bükdük. Nəticədə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan döyüş meydanında qələbə əldə etdikdən sonra hazırda diplomatiyada və xarici mətbuata qarşı sinə gərməklə şər və böhtan kampaniyasının qarşısını almağa davam edir. Azərbaycana qarşı ikili yanaşma heç bir dövlətə başucalığı gətirə bilməz”.

***Ləman Sərraf***

# ABŞ-Çin "yaxınlaşması" Putin üçün niyə sərfəli deyil..?



ABŞ prezidenti Cozef Bayden və Çin prezidenti Si Sinpin arasında ehtimal olunan görüş noyabr ayında San-Fransiskoda Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində baş tutacaq. Təbii ki, bu görüşdə tez nəticələr gözlənilməmælidir, lakin bu halda danışıqlar ABŞ və Çin arasında birbaşa və sərt qarşıdurmadan daha yaxşıdır.

SİA-nın əldə etdiyi məlumata görə, bu barədə ukraynalı politoloq Vladimir Fesenko "Kanal 24"-ə danışarkən, Putinin Çin və Amerika Birləşmiş Ştatları arasında sərt qarşıdurmadan nə üçün faydalandığını açıqlayıb. Qeyd edək ki, Çin lideri bu yaxınlarda ABŞ-la əməkdaşlığa hazır olduğunu bəyan edib.

Fesenkoya görə, Bayden və Si Cinpinin görüşü Putin üçün çox əlverişsizdir. O ümid edir ki, Pekin Ukraynaya qarşı müharibəni dəstəkləməkdə davam edəcək və Vaşinqtona qarşı Moskvanın yanında olacaq. Bununla belə, belə görünür ki, Çinin mövqeyi bir qədər fərqlidir. Pekin hazırda ABŞ-la həm iqtisadi, həm də geosiyasi rəqabətdədir. Çin dünya liderliyinə can atır...

Bunu deyən ukraynalı politoloqa görə, Rusiya təcavüzkar ölkənin təsir mərkəzlərindən biri olacağı çoxqütblü dünya istəyir. Çin isə iki qütblü dünya istəyir, burada yalnız iki böyük dövlət var - ABŞ və Çin. Belə ki, onlar bir-biri ilə danışıqlar, bir-biri ilə rəqabət aparırlar. Və hər şeyi də yalnız onlar həll edirlər. Fesenkonun fikrincə, burada fikir ayrılıqları var. İndi Çin ABŞ-la birbaşa, xüsusən də hərbi qarşıdurmaya hazır deyil və bunu istəmir də. Çünki bu həm çox risklidir, həm də qlobal ticarət üçün böyük neqativdir.

Fesenkonun sözlərinə görə, Çin və Rusiyanın maraqlarında bir sıra fikir ayrılıqları var. ABŞ və Çinin dialoqu davam etdirməsi dünya üçün vacibdir. Təbii ki, Pekin və Vaşinqton arasında rəqabət və müəyyən geosiyasi qarşıdurma var, amma bu vəziyyətdə razılığa gəlib danışıqlar aparacaqlar. Təbii ki, bu da Rusiyanı qane etmir?

***Ağasəf Babayev***

# Azərbaycanda sıxlığın qarşısını necə almaq olar?

***"Bütün dünyada insanlar regionlardan daha çox iri şəhərlərə, paytaxta can atırlar. Bu da onunla əlaqəlidir ki, bəzən regionlarla iri şəhərlər arasında iqtisadi inkişaf qeyri-bərabər olur: "Böyük şəhərlərdə, bizim paytaxtımızda da demək olar ki, 70-80 faiz müəssisələrin sahibkarlığı Bakıda formalaşıb.***

Həm burada maaşların yüksək olması, həm gəlirlərin çox olması, həm biznes qurmağın daha səmərəli və gəlirli olması baxımından insanlar daha çox Bakıya axın edib". SİA xəbər verir ki, bu sözləri açıqlamasında iqtisadçı Eyyub Kərimli deyib. Onun sözlərinə görə, bu məsələnin qarşısını almaq üçün Bakı ilə regionlar arasında qeyri-bərabər iqtisadi inkişafın qarşısı alınmalıdır: "Regionların tarazlı və dinamik inkişafı təmin edilməlidir. Rayonlarda daha çox müəssisələrin, istehsal müəssisələrinin, emal müəssisələrinin açılmasına şərait yaradılmalıdır. Həmçinin kənd təsərrüfatı sahəsində məşğul olan insanları daha həvəsləndirici tədbirlərlə cəlb etmək lazımdır ki, insanlar kənd təsərrüfatı ilə məşğul olsun, bundan bəhrələnsin. Bunun üçün həm stimullaşdırıcı tədbirlər, həm güzəştli kreditlər ayrılmasına böyük ehtiyac var. İkinci məsələ sosial məsələdir ki, burada əsasən insanlar daha çox sosiallaşma, əyləncə və sosiallaşma proseslərindən bəhrələnmək onları daha çox cəlb edir".İqtisadçı sözlərinə davam edərək bildirib ki, bu baxımdan, sözsüz ki, regionlarda da həmin məsələlər həllini tapmalıdır: "Burada həm sosial müəssisələrin, əyləncə mərkəzlərinin açılmasına böyük ehtiyac var. Eyni zamanda insanların asudə vaxtını daha da cəlbedici keçirməsinə böyük ehtiyac var. Bunun üçün belə bir şəraitin yaradılması lazımdır. Bu baxımdan, əlbəttə, yeni məkanların açılması, Bakıdan regionlara universitetlərin, müəssisələrin, nazirliklərin bəzi şöbələrinin köçürülməsi regionların bərabər və tarazlı inkişafına dəstək ola bilər".

***Ləman Sərraf***



# Boşanmalar pik həddə çatıb: SƏBƏB NƏDİR?

***Vaxt var idi bu ölkədə, şəhərli-kəndli hər ailədə boşanma adı gələndə hər kəsi sarsıntı, dərin narahatlıq bürüyərdi. Xüsusilə, kənd-kəsəkdə boşanan ailələri barmaqla göstərərdilər. Ağsaqqallı-ağbirçəkli düşürdülər əl-ayağa, hər kəs bir yandan çalışırdı ki, ailə dağılmasının qarşısı alınsın, uşaqlar başsız qalmasın. Hər iki tərəfi dinləyib uzaqgörən qərar verilərdi. El məhkəməsi vardı o vaxtlar. Hər söz-söhbətdən ötrü ailələr dağılmazdı. Ailə dəyərləri göz bəbəyi kimi qorunurdu əvvəllər.***



Sözsüz ki, əvvəlki nəsillərin düşüncəsi, milli mentalitetə, dəyərlərə olan sadiqliyi bir başqa idi. Haqlısınız, o zamanlar sosial şəbəkələr, mobil telefonlar yox idi. Amma bütün günahları zəmanənin, texnologiya inkişafının üzərinə atmaq da çox məntiqsiz sayılar.

Diqqət edin: ər evində oturmaqdan bezib, sərbəst yaşamaq, "azad həyat sürmək" eşqinə düşənlərin sayı durmadan artır. Bələləri yol alırlar fahişəliyi və qeyrətsizliyi reklam edən efirlərin canına. Bütün günü "ər şiddəti"nin, qonşusu ilə əxlaqsızlıq edən qadınların reklamı gedir. Sanki bilə-bilə ailə dəyərlərini məhv etmək istəyirlər. Üstəgəl, sosial şəbəkələrdə cinsi azlıqların harın həyatının gözə soxulması bu siyasətin tərkib hissəsidir. Xüsusilə, son bir neçə il ərzində sosial şəbəkələrdə əksər qadınların yersiz "fəallığı", ağına-bozuna baxmadan ailəli olduğunu kənara tullayıb özünə sevgili axtarışına çıxması ailələrin kütləvi şəkildə dağılmasına yol açır. Evli xanım ailə məsuliyyətini, abır-həyasını ayaq altına atıb bu yolu tutursa, bu, bir cəmiyyət üçün əsl FACİƏDİR! Ərini, uşaqlarını düşünməyən, evdə biş-düş əvəzinə sosial şəbəkələrdə "biş-düş edən" bu cür evli xanımlar, həm də öz sonlarını gətirirlər. Çünki ailəsi dağılandan sonra onu hamar, cah-cəlallı ömür gözləmir. Gözəlliyinin üstündə olacağı vaxta qədər, sonra küçələrə atılan həyatı başlayır bələlərinin. Bir çoxları boşanmaları sosial problemlər, pulsuzluq və işsizliklə əlaqələndirirlər. Sözsüz ki, evə qazanc gəlməyəndə qazana sevgi dolu sözlərdən ibarət ərzaq doldurmaq olmur. Mütləq qazanc lazımdır. Amma ailəni qorumaq, əl-ələ verib çətinlikdən çıxmaq əvəzinə çətinlikləri bəhanə edib boşanmağı seçənlər indi kəllə-çarxa çıxıblar. Bircə fakt bu dediklərimə gün kimi misaldır: İkinci Dünya müharibəsində insanlar yeməyə yox, qoxulayıb cigərlərinə çəkməyə çörək tapmırdılar. Amma indiki dövr üçün nə qədər əcaib görünsə də, o zaman, yəni ikinci dünya müharibəsi zamanı boşanan ailə qeydə alınmadı! Bu da sənə fakt..

## Yüksək aliment, qanunun boşluğu, yoxsa sosial şəbəkələr?

Təəssüf ki, Ailə Məcəlləsindəki bir sıra boşluqlar da boşanmalar üçün əsl "yemdir". Təsəvvür edin ki, məhkəmələrimizdə boşanma prosesi yazıq kişinin əsl faciə tamaşasına çevrilir. Bütün hallarda günahkar, məhz KİŞİLƏR elan olunur. Mən, kişi-qadın ayrı-seçkiliyi aparmıram. Amma fakt odur ki, qadının zərif cins olmasına görə qanunvericilik tamamilə birtərəfli şəkildə qadının yanındadır. Boşanmanın səbəbini nəzərə almadan belə! Sözsüz ki, içki düşkünü, narkoman, ailəsinə baxmayan, həyat yoldaşına, övladlarına zülm edən ərləri yüz qatına cərimələmək lazımdır. Bələlərinə heç bir güzəşt olmaz. Bu tiplər ailə dəyərləri üçün üz qarasıdır. O başqa məsələ.

Təsəvvür edin ki, ailəsinə, ocağına xəyanət edən əxlaqsız yolun yolçusu ifşa olunur və özünə hörmət edən ər onu həyatından silməyə qərar verir. Çünki bunun başqa alternativ variantı da yoxdur. Namusunu ayaqlar altına atan qadınla bir yastığa baş qoymaq əsl Azərbaycan kişisinin görəcəyi iş deyil...

Həmin anda həmin bu pis yolun yolçusu olan qadın xəyanət etdiyi kişidən 1 otaqlı ev və aliment qoparıb sakitcə, "azad şəkildə" tam sərbəst həyatına davam edir. Əsl azadlıq! Bəs hanı ədalət, hanı qanunun aliliyi? Məhkəmədə niyə ailəsinə xəyanət yolu tutan birisinə cəza verilmir, niyə onun hüquqları məhdudlaşdırılmır? Belə çıxır ki, qadın xəyanət edəcək, ailəsini atacaq, amma namuslu əri ona 1 otaqlı ev və uşağa görə 18 il aliment ödəyəcək. Bu, necə ədalətdir ki? Demək belə getsə, cəmi bir neçə ildən sonra rəsmi nikaha girənlərin sayı da nadir statistika arxivinə çevriləcək. İndi əksər oğlanlar da ayılıblar ki, əksər qızlar ailə qurmaq, ev-eşik sahibi, övlad sahibi olub bir ömür bir yerdə xoşbəxt həyat sürmək üçün yox, 3-5 ay evli olub əmlak və aliment sahibi olmaq üçün "evlənirlər". Bu məsələ, gerçəkdən olduqca ciddi xəbərdarlıqdır. Bu, sözün əsl mənasında, milli dəyərlərimizin gələcəyi üçün tarixi həyəcan təbilidir.

## Boşanmanın qurbanı-günahsız uşaqlar!

Və ən sonda gələk bu boşanmalardan əziyyət çəkən əsas hədəf olan balaca uşaqlara. Onlar, ata və analarının arasında baş verənlərdən, ailə münaqişələrindən bixəbər olurlar. Yəni, yaşı 10-a çatmayan uşaqlardan danışıram. Amma o uşaq yaddaşlarına elə bir zərbə həkk olunur ki, bir ömür o zərbənin təsirindən həyatları boyu əziyyət çəkirlər. Görəsən, valideyn adını doğum şəhadətnaməsində yazdıran insanlar, o ada layiq olmaq barədə heç həyatları boyu ayda-ildə bir dəfə də olsun düşünürlərmi?

Məktəbə atasız gedən uşağın, həmyaşıdlarına olan ata qayğısını necə həsədlə, əsəbiliklə və hətta nifrətlə seyr edəcəyini heç düşündülərmi boşanmaya tələsənlər? Düşündülərmi ki, bu uşaq ata-ana sevgisindən məhrum olan, ailə sevgisi yaşamayan bir fərd olaraq əbədi şikəst kimi böyüyəcək? Düşünsələr məsuliyyətsiz addımlar atmaz, dünyaya gətirdikləri körpələrin atasız-anasız böyüməsinə yol açmazlar. Ailə məsuliyyəti deyilən məfhumdan xəbəri olmayan yüzlərlə ailə var cəmiyyətimizdə. Təəssüf ki, ailə qurmaqla bağlı maarifləndirmə hələ ki, mənasız və ətürpədən yalançı cümlələrdən uzağa getmir. Demək ki, sevgidən daha əvvəl quracağın ailənin məsuliyyətini anlamaq və onu qorumaq barədə düşünməlisən. Çünki sən hollandiyalı, belçikalı, norveçli və ya başqa birisi deyilsən. Sən ailə dəyərlərini min illərdir qoruyub saxlayan, ta bu günlərə gətirib çıxaran ƏSL AZƏRBAYCANLISAN!...

***Mətləb Salahov***

Təhlil

# Qüdrətli dövlətin uğurlu sosial-iqtisadi inkişaf modeli

***Bu gün son 20 ildə Azərbaycan Prezidenti İlham Əliyevin «güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah» konsepsiyası Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir ki, bunun nəticəsində biz uğurla inkişaf edirik. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: ”Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik».***



***PREZİDENT İLHAM ƏLİYEV: "Son 20 ildə Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur"***

«Əsl siyasət konkret, real iş görməkdir» – deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. “Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır” – ölkə başçısının bu sözləri aparılan siyasətin ana xəttidir.

Təkcə cari ilin ötən dövrünün reallıqlarına diqqət yetirsək, möhkəm təməlin uğurların davamlılığında rolunu aydın şəkildə görərik. Belə ki, iyulun 11-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı vurğulayıb ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra edilir. Dövlətimizin başçısı onu da qeyd edib ki, iqtisadi və maliyyə imkanlarımızın genişliyi hər bir sahədə davamlı uğurlara nail olmaq üçün zəruri tədbirlərin görülməsinə stimul verir. Maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi və digər amillər ilin ortasında büdcəyə yenidən baxmağa və dürüstləşmə aparmağa imkan verdi. Dövlətimizin başçısı hazırda büdcəmizin 36 milyard manatdan çox olduğunu xüsusi vurğulayaraq əlavə etdi ki, bu, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra etməyə, həm azad edilmiş torpaqlarda geniş quruculuq işlərini aparmağa və həm də hərbi gücümüzü artırmağa imkanlar yaradır.





Hazırkı dövrün əsas hədəfi olan hərbi gücümüzün artırılmasına gəldikdə, Azərbaycan İkinci Qarabağ münaqişəsində 30 ilin işğalına son qoyub ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi. “Müzəffər Ali Baş Komandan İlham Əliyev postmünaqişə dövrünün hədəflərini açıqlayarkən hərbi qüdrətimizin artırılmasını xüsusi qeyd etdi. Bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Ordumuz həm döyüş qabiliyyəti, həm də silah və texnika ilə təchizat baxımından daha da güclü olacaq. Dövlətimizin başçısı bir daha bildirdi ki, iki istiqamət üzrə - hərbi potensiala və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaq. Bu siyasət ölkəmizin qüdrətini artırır. Çünki bu gün dünyada güc amili ön plandadır. Son iki il yarımın reallıqları bir daha təsdiqlədi ki, heç kim Azərbaycanın iradəsinə təsir edə bilməz. Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və bundan sonra belə cəhdlər də olmayacaq.

Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdırmaq üçün tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ifadə etdiyi “Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq” ifadəsi müşahidə etdiyimiz genişmiqyaslı bərpa-quruculuq işləri ilə bir daha təsdiqini tapır.

## DÜZGÜN İQTİSADİ SİYASƏT ÖLKƏNİ ANCAQ TƏRƏQQİYƏ DOĞRU APARIR

Bu real faktordur ki, ölkə iqtisadi cəhətdən müstəqil olanda, siyasi müstəqilliyə də qovuşmuş olur. Çünki iqtisadi asılılığı olan ölkələr heç vaxt müstəqil siyasət yürüdə bilməzlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi və siyasi müstəqillik qazanmış azsaylı ölkələrdəndir. İlin altı ayının sosial iqtisadi göstəricilərinin ildən-ilə artaraq tərəqqiyə doğru aparır.

«Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir»,-deyən Prezident İlham Əliyev bildirib ki, ölkəmiz ötən altı ayda nəzərdə tutulmuş hədəflərə nail olunub. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır. Qeyd olunmuşdur ki, cari ilin altı ayında əsas istiqamətlər ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.

## QÜRURLA VERİLƏN VƏD QƏTİYYƏTLƏ GERÇƏKLƏŞDİRİLİR

Bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsir həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır. Çünki bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq.

Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu işlərin təməlində Azərbaycan xalqının maraqları dayanır: «On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir».

Bəli, Qalib, Qurucu liderimiz, Prezident İlham Əliyev cənablarının birbaşa rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurumuz başdan qurulur, gün keçdikcə tarixi diyarlarımız cənnətə çevrilir. Və bu böyük işləri

## AZƏRBAYCAN HEÇ BİR BEYNƏLXALQ MALİYYƏ QURUMUNDAN YARDIM ALMADAN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURU ÖZ İQTİSADİ QÜDRƏTİ HESABINA YENİDƏN QURUR

Hazırda möhtəşəm tarixi qələbənin sevincini yaşayan xalqımız Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Düşmənin 30 il ərzində viran qoyduğu ərazilərimizin, daşı daş üstdə saxlamadığı yurd yerlərinin bərpası sürətlə davam etdirilir və Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. Bu ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi və istirahəti üçün hər cür şərait yaradılır.

Bu reallıq bir daha sübut edir ki, Azərbaycan heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan Qarabağ və Şərqi Zəngəzuru öz iqtisadi qüdrəti hesabına yenidən qurur.

Bir sözlə, dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir. Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar.

***RƏFİQƏ KAMALQIZI***

# Gözəgörünməz terror!

## *Azərbaycanda mina partlayışlarının qurbanları əsasən mülki şəxslərdir*



***Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə qədər Qarabağ iqtisadi rayonundakı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin ərazilərimizə kütləvi şəkildə yeni minalar döşəməsi, bununla da Azərbaycana qarşı mina terroru siyasətini davam etdirməsi hər kəsə məlumdur. Təsadüfi deyil ki, İkinci Qarabağ müharibəsindən sonra 340 nəfərə yaxın Azərbaycan vətəndaşı ermənilərin mina terrorunun qurbanı olub.***

Təəssüf ki, bu rəqəmin gələcəkdə artacağı istisna deyil. Çünki ermənilər minaları basdırarkən bütün hiylələrdən istifadə ediblər. "Azərbaycanda mina qurbanları əsasən mülki şəxslərdir. Deməli olar ki, hər həftə daha bir ölümcül və qanlı mina partlayışının şahidi oluruq". Bu barədə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" paylaşımında deyib.

Bildirək ki, təkcə 2021-ci ildə işğaldan azad edilən ərazilərdə Ermənistanda istehsal olunmuş 2 min 728 mina aşkarlanıb və zərərsizləşdirilib. Bunların 1119-u Azərbaycan və Ermənistan arasında sərhəd ərazisində, Kəlbəcər və Laçın rayonlarında, 1609-u isə Qarabağ iqtisadi rayonunun ərazisində aşkarlanıb. Ümumilikdə isə 1-ci Qarabağ müharibəsi dönəmindən bu günə kimi Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarında 1,5 milyon mina basdırılmış, 147 988 hektar ərazi yüksək səviyyədə, 675 570 hektar ərazinin isə orta və aşağı səviyyədə çirkləndirilmişdir. Ermənistanın Azərbaycan xalqına qarşı mina müharibəsi nəticəsində 3 min 415 nəfər azərbaycanlı mina hadisəsinin qurbanı olub. Onların 357 nəfəri uşaq, 38 nəfəri qadındır. 10 noyabr 2020-ci il bəyanatından ötən 3 ilə yaxın müddətdə Ermənistan mina terrorunu bir gün da olsun dayandırmayıb. Əvvəlcə Ermənistan hakimiyyəti mina xəritələrinin olmasını danıb, daha sonra Azərbaycanın tələbi qarşısında guya bəzi mina xəritələrini təqdim edib, ancaq məlum olub ki, onlar yalançı, saxta xəritələrdir və reallığı əks etdirmir. Ermənistan 30 ilə yaxın bir dövr ərzində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrindəki şəhər və rayonları yalnız işğal altında saxlamaqla kifayətlənməyib, işğalçılar insanlarımızın həyat və sağlamlığına zərər vermək məqsədilə həmin əraziləri kütləvi şəkildə minalayıblar. Vətən müharibəsi başa çatandan Azərbaycanın qarşısına qoyduğu əsas vəzifələrdən biri də məhz işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsidir. İndiyədək 20 faizdən çox ərazi minalardan təmizlənib. Proses bu gün də sürətlə davam etməkdədir. Statistikaya əsasən, 2020-ci il noyabrından bu ilin sentyabrın 1-nə qədər isə 95 318 hektar ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib, 93 410 mina və partlamamış hərbi sursat tapılaraq zərərsizləşdirilib.

Sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra qondarma rejimin həmin ərazilərdə əlavə minalar basdırdığı üzə çıxıb. 480 km-dən artıq təmas xətti boyunca yerləşdirilən yarım milyondan artıq mina heç də təsadüfi partlayıcı və ya partlamamış hərbi sursatlar deyil. Ən son məlumata görə, Azərbaycan Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyi Xankəndi şəhəri ərazisində yerləşən müəyyən inzibati binalarda xeyli sayda partlayıcı qurğular aşkarlayıb. İnzibati binalara baxış keçirilən zaman bunların qanunsuz hərbi birləşmələr tərəfindən quraşdırıldığı üzə çıxıb. Bundan əvvəl isə məlum olub ki, aprelin sonunda - Laçın dövlət sərhədindən buraxılış məntəqəsi yaradılmazdan əvvəl, Ermənistan yeni istehsal olunmuş minaları Qarabağa çatdırmaq üçün Laçın yolundan sui-istifadə edib. Minalar müharibə silahı kimi istehsal olunsa da, görünən odur ki, qurbanların yalnız 10 faizi hərbçilərdir. Düşmən məhz mülki sakinləri, o cümlədən qadın və uşaqları, təsərrüfat işləri ilə məşğul olan insanları hədəfə alıb.

Qeyd edək ki, bu minaların zərərsizləşdirilməsi çox böyük səylər tələb edir. Belə ki, ermənilər ərazilərimizdə "sürpriz" minalardan daha çox istifadə ediblər. "Sürpriz" minalar dedikdə tank əleyhinə və digər minaların zərərsizləşdirilməsini mümkünsüz edən qurğu nəzərdə tutulur. Bundan başqa, onlardan "əlavə yükdən azad olunma zamanı işə düşən mina tələsi" kimi istifadə etmək mümkündür. Bu metod əvvəlcə tank əleyhinə, onun üzərində isə piyada əleyhinə minanın basdırılmasını nəzərdə tutur. Tank əleyhinə (və ya digər) minanı quraşdırıldığı yerdən çıxarmağa cəhd edəndə ilk növbədə alt hissədə yerləşdirilən "sürpriz" mina partlayır, bu da öz növbəsində üst tərəfdə yerləşdirilən əsas minanın partlamasına və ikiqat zərərin yaranmasına səbəb olur. Mütəxəssislərə görə, sürpriz-minaları döşəmək üçün xüsusi hazırlıq lazımdır. Çünki bu proses çox təhlükəlidir. Əks halda, onu qoyanın özünü mina partlada bilər. Ekspertlər həmçinin bildirirlər ki, "sürpriz" metodu ilə basdırılan minaların partlaması zamanı minaya düşən şəxsin sağ qalmaq ehtimalı sıfıra bərabərdir. Məlumdur ki, mənfur düşmən minaları işğaldan azad edilmiş rayonların qəbiristanlıqlarında da basdırıb. Məqsəd insanların həlak olan yaxınlarının məzarını ziyarət edərkən, yaxud da dağıdılmış məzarlıqlar bərpa olunarkən minaların işə düşməsi və daha çox insan tələfatına səbəb olmasıdır. 2022-ci ilin ilin 3 oktyabr tarixində Laçın rayonunun Zabux və Sus kəndləri nəzarətimizə keçdikdən sonra evlərin giriş qapılarında və həyətyanı sahələrdə yeni quraşdırılmış mina tələləri aşkarlanmışdı. Minanın daha çox insan tələfatına səbəb olması üçün qəsdən belə şəkildə quraşdırılması










Ermənistanın beynəlxalq konvensiyaları pozması və insanlıq əleyhinə cinayətini davam etdirməsidir. Ermənistan "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını, 10 oktyabr 1980-ci il "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanın İkinci Protokolunun tələblərini kobud şəkildə pozur. BMT-nin 1999-cu ildə qəbul etdiyi "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiyanın müddəaları da Ermənistan tərəfindən pozulur.

Həmin Konvensiyaya əsasən, münaqişə tərəfləri müharibə başa çatdıqdan sonra minalardan təmizlənəcək sahələrin xəritələrinin təhvil verilməsi, piyadalara qarşı minalardan istifadə etməyəcəkləri barədə öhdəlik götürür. Bunun üçün beynəlxalq birlik tərəfindən Ermənistana qarşı təzyiq mexanizmləri işə salınmalı, erməni terroru cəzasız qalmamalıdır.

**Sevinc Azadi**

# Ölüm qoxusu saçan minalar

## Mina qurbanlarının sayı 337-yə çatıb




*Azərbaycan 44 günlük Vətən müharibəsini qələbə ilə başa çatdıraraq tarixi ədaləti bərpa etdi. Düşməni torpaqlarından qovaraq, diz çökdürdü. Bu müharibədə xalqımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. Dövlət başçısı Sərkərdəlik məharəti nümayiş etdirərək Qarabağın Xilaskarı kimi tarixə adını həkk etdi. Bu gün üçrəngli Azərbaycan bayrağının Qarabağda və Şərqi Zəngəzurda qürurla dalğalanması ölkəmizin gücünün və qüdrətinin təntənəsidir. Erməni vandalları, faşistləri tərəfindən viran qoyulmuş şəhər və kəndlərimizə Azərbaycan bayrağı sancılıb.*

Bu gün həmin ərazilərin bərpası ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur. Bu əzəli torpaqlarımızın hər bir abidəsi, hər bir muzeyi, eləcə də yaşayış yerləri, infrastrukturu yenidən qurulur və bərpa olunur. Erməni vandalları 30 il ərzində insanları qətlə yetirib, soyqırımları törətməklə yanaşı, terrorlar da həyata keçiriblər. Faşist ideologiyaya malik ermənilər 30 ilə yaxın işğal altında olmuş Azərbaycan ərazilərindəki meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara böyük zərbə vurub. Azərbaycanın "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət inciləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan dəyib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizim meşə fondumuz da məhv edilib, 54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb". Dövlət başçısı onu da qeyd edib ki, işğala qədər bizim meşələrimizin ümumi həcmi təqribən 220-230 min hektar idi.

### İNSANLIĞA QARŞI YÖNƏLDİLMİŞ BƏLA

Erməni terrorizmi insanlığa qarşı yönəldilmiş bəladır və minlərlə insan terrorçuların törətdikləri əməllərin acı nəticələrini yaşamışdırlar. Əlbəttə ki, terrorçunun milliyyəti və sərhədi yoxdur. Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır.

Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Müasir dünyamız 200 il ilə müqayisədə ciddi şəkildə dəyişmiş olsa da təssüflər olsun ki, erməni cildi dəyişməyib. Ermənilərin hər bir hərəkəti, ümumilikdə siyasəti məkrlidir. Azərbaycanlılara qarşı baş verən erməni təxribatları vəhşiliyin, vandal davranışın bariz nümunəsidir. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların tarixi kimliyinə söykənir. Vətən müharibəsinə qədər, eləcə də, həmin zamanda erməni terroçuların törətdikləri əməllər dünyanın gözü qarşısında baş verib.



Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın döyüş meydanında qazandığı Zəfər bütün dünyaya yayıldı və ölkəmizin qısa bir zamandakı hərbi əməliyyatı, taktikası dünya ölkələri tərəfindən böyük maraqla qarşılandı. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə cəbhədə Ermənistanın silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurmaqla, onları torpaqlarımızdan "iti qovan kimi" qovaraq məğlub etməsi 30 ilə yaxın işğal altında olan tarixi torpaqlarımızın azad olunması ilə nəticələndi. Artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-quruculuq işlərinə başlayıb.

### MİNALARIN TƏMİZLƏNMƏSİ MALİYYƏ İTKİSİ İLƏ YANAŞI, VAXT İTKİSİNƏ DƏ SƏBƏBDİR

Təbii ki, yaxın zamanda bunun reallaşması bir qədər çətindir. Belə ki, erməni təcavüzkarları işğal altında olan ərazilərimizi darmadağın edərək xarabazarlıqlara çeviriblər. Bu gün həmin ərazilərdə genişmiqyaslı layihələr icra olunur. Əlbəttə ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilasıdır. Minaların təmizlənməsi maliyə itkisi ilə yanaşı, vaxt itkisinə də səbəb olur. Azərbaycan Zəfər qazandıqdan sonra bu günə qədər mina qurbanlarının sayı 337-yə çatıb. Bu xəritələri verilməsi işğaldan azad edilmiş ərazilərdə tikinti və yenidənqurma layihələrini tez bir zamanda reallaşmasına səbəb olar. Dövlət başçısı "Minalanmış sahələrin xəritələrinin çox hissəsini isə bizə vermirlər. Ona görə bu çox çətin işdir, onu sürətlə icra etmək mümkün deyil. Nə qədər vəsaitin olsa belə, bunun üçün vaxt lazımdır".

### 5944 HEKTAR ƏRAZİDƏ TƏMİZLƏNMƏ İŞLƏRİ APARILIB

Bu gün artıq ərazilərimiz minadan təmizlənir. Cari ilin oktyabr ayında Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda 338 piyada, 154 tank əleyhinə mina və 1389 partlamamış hərbi sursat aşkarlanıb. 408 hektar ərazi minadan təmizlənib.

Minatəmizləmə Agentliyi tərəfindən işğaldan azad edilən torpaqlarda indiyədək 10 min 200 piyada, 4329 tank əleyhinə mina və 12 min 436 partlamamış hərbi sursat aşkarlanıb. 5944 hektar ərazidə təmizlənmə işləri aparılıb. Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir. Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb.

Ermənistan minalanmış sahələrin tam xəritələrini verməsə də, bu gün artıq Azərbaycan işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərini davam etdirir. Azərbaycanın dinamik inkişafı tezliklə işğaldan azad olunan ərazilərimizin bərpasına imkan verəcək və illərdir vətən həsrəti ilə yaşamış insanlar əzəli torpaqlarımıza qaydacaqlar.

*Nəzakət ƏLƏDDİNQIZI*



Elçin Bayramlı

# Ölüm yelləncəyinin müştəriləri: onları nə və necə öldürür?

***Dünənki günü də 5 intihar xəbəri ilə tarixə qovuşdurduq. Son vaxtlar intiharların sayı artır. Təəssüfedici haldır ki, onların arasında uşaqlar da var. 2022-ci ildə 42-si uşaq olmaqla Azərbaycanda 609 intihar hadisəsi qeydə alınıb.***

Dünya Psixiatriya Assosiasiyası XXI əsri "depressiya və intiharlar əsri" adlandırıb. İntiharlar kapitalizm cəmiyyətlərində artan templə davam edən adi haldır. Maraqlıdır ki, dünyada ən çox intihar hadisəsi inkişaf etmiş ölkələrdə baş verir. Buradan aydın olur ki, ökənin zəngin olması, adambaşına düşən gəlirlərin yüksək olması hələ hər şey demək deyil.

Azərbaycanda bu, son dövrlərdə şiddətlənmiş problemdir. 20-30 il əvvələdək belə hallar çox nadir olurdu. Dəyərlərin dəyişməsi, psixoloji gərginlik, mənəvi böhran, sosial problemlər və kimi faktorlar bu prosesdə əsas rol oynayır.

Bəzi ekspertlər intiharlarda sosial problemlərin əsas rolun oynadığını qeyd edirlər. Amma müqayisəli statistika və adi müşahidələr başqa şey deyir. Maraqlıdır ki, aclıq, müharibə dövrlərində intiharlar çox az olub. Əksinə, intiharlar əsasən bolluq zamanında çox olur. Məsələn, Böyük Vətən Müharibəsi illərində- ən ağır sosial problemlərin olduğu vaxtda intiharlar ən aşağı səviyyədə olub. Elə sosial cəhətdən ən ağır dövrlərdən olan 90-larda da belə idi.

Deməк, intiharlarda sosial problemlərin rolu azdır. Əsas faktor mənəvi-psixoloji problemlərdir. Ölkədə mənəvi deqradasiyanın, psixoloji təzyiqin güclənməsində özəl televiziyaların çox böyük və əvəzedilməz rolu var. Adamlar televiziyada daha çox qan-qırğın, terror, qətl, intihar hadisələri ilə rastlaşırlar. Bu hallar adiləşir və sonda insanlar hansısa problemi yarananda çıxış yolunu intiharda görür.

Cəmiyyətdə mənəvi dəyərlərin deqradasiyaya uğraması, tərbiyə və əxlaqın normal səviyyədə olmaması, ünsiyyət ənənəsinin itməsi, hansısa ağır xəstəlikdən əzab çəkmə, təklənmək problemi, şəxsiyyətin sındırılması, başqaları tərəfindən başa düşülməmək, cəmiyyətdə gözlənilmədən baş verən hadisələrə uyğunlaşa bilməmək, fərdin qayğısına qalan və onu sevən birinin olmaması, sevdiyi şəxsin xəyanəti, norkotik maddələrdən asılılıq kimi problemlər intiharların əsas səbəbidir.

Faciənin ən dəhşətli tərəfi isə azyaşlı uşaqların intiharıdır. Burada əsas məsuliyyət dövlətin və cəmiyyətin üzərinə düşür. Valideynlərin çoxu uşaqlarının tərbiyəsini buraxıb televiziyanın, internetin öhdəsinə. Hər uşağın əlinə yekə bir smartfon alıb verib canlarını qurtarıblar. Onların yerinə uşaqlarını kimlər tərbiyə, edir, kimlər yönəldir heç veclərinə də deyil.

İnternetdə ağla gələn və gəlməyən hər cür təhlükəli materiallar var- hansı ki, psixikaya çox ağır zərbə vurur, dəyərlər sistemini dəyişdirir, əxlaqsızlığı, narsizmi, eqoizmi, həyatda maddi həzz və əyləncədən üstün dəyər olmadığını təbliğ edir, mənəvi boşluq yaradır.

Elm sübut edib ki, televiziya və internet materialları insan psixikasına hər şeydən güclü təsir edir.. Subliminal mesajlarla dolu olan videomateriallar, xüsusi frekansda və beyin xarab edən tonlarda mahnılar, səslər şüuraltına işləyir və yalnız pis məqsədlərə xidmət edir.

Uşaqlarına sahib çıxmayan onların tərbiyəsi ilə məşğul olmayan, onlara vaxt diqqət və ayırmayan, qayğı göstərməyən, fasiləsiz olaraq nəzarət etməyən valideynlərin övladları böyük risk altındadır. Çünki ətrafdan çox güclü psixotron təzyiq, daha doğrusu terror var. Uşaqlar qorxunc virtual dünyanın caynağına buraxmaq olmaz. Onlar bu psixotron terrorun öhdəsindən gələ bilməz.

Uşaqlar cəmi 30 il əvvəlki ənənəvi məkanlarından- yaradıcılıq mərkəzlərindən, istirahət düşərgələrindən, idman salonlarından ayrılaraq küçələrə tərk edilib. Burada dövlətin də çox böyük rolu var. Sovet dövründə pulsuz olan yaradıcılıq və idman mərkəzlərinin indi hamısı pulludur və qiymətləri çox bahadır, bu səbəbdən valideynlərin çoxu uşaqlarını onlara yazdıra bilmir. Bir ailədə orta hesabla 2-3 uşaq olduğunu nəzərə alsaq, orta statistik azərbaycanlı üçün bu qətiyyən əlçatan deyil. Bu halda uşaqlar küçələrə, internet məkana buraxılır və psixologiyasının formalaşması artıq qeyri-sağlam şəkildə baş verir. Beləliklə, biz getdikcə daha çox uşaq intiharı faktı ilə qarşılaşırıq. Bu qeyd edilən məsələlər həll olunmasa intiharların daha da kütləviləşəcəyinə şübhəm yoxdur.

# Ermənilər aqibətləri ilə barışdılar: Zəngəzur faktoru reallaşır

### Etiraf: "İndi bütün ölkələrdən gələn mesaj eynidir, Sünikdə (Zəngəzurda) təmsil olunmaq"

Zəngəzur dəhlizi məsələsinin daha sonrakı vaxta qədər yubadılması prosesinə demək olar ki, son qoyulmaq üzrədir. Məsələ ondadır ki, "iki ayağını bir başmağa dirəyən" rəsmi İrəvan dəhliz məsələsinin həll olunmayacağı halda daha pis nəticələrə gəlib-çıxacağını necə deyərlər, qanmağa başlayıb.

### Ermənistan XİN-in müavini Paruyr Ovannisyan: "Düşünürəm ki, digər ölkələrdən də diqqət artacaq"

Belə ki, Ermənistanın xarici işlər nazirinin müavini Paruyr Ovannisyan Rusiyanın Zəngəzurda konsulluq açmaq qərarı ilə bağlı danışarkən deyib ki, ölkələr icma, iqtisadi və siyasi maraqları və sairi nəzərə alaraq konsulluqlar açır: "Vəziyyət İrandakı kimidir, Fransa bunu açıqlayıb. Düşünürəm ki, digər ölkələrdən də diqqət artacaq", - Ermənistan iqtidarının rəsmisi etiraf edib.




Digər tərəfdən, İran və Fransa məsələsində "Ermənistanın ərazi bütövlüyünün qorunması" ilə bağlı bəyanatların səsləndirilməsi və Rusiya tərəfinin siyasi mesajının nədən ibarət olması ilə bağlı məqamlara gəlincə, Ovannisyan söyləyib ki, konsulluğun açılması həm də siyasi komponenti ehtiva edir: "Amma burada söhbət mərkəzləşdirilməmiş əməkdaşlıqdan, iqtisadi maraqlardan, mümkün uyğun enerji nəqliyyatı layihələrindən gedir. Siyasi komponent ondan ibarətdir ki, bu regiona bütün nəticələri ilə maraq var".




### XİN rəsmisi baş nazir Nikol Paşinyanın deyə bilmədiyi ifadələri məhz Paşinyanın göstərişi ilə ictimailəşdirib

Fakt isə budur ki, Ermənistan rəsmisi Zəngəzura artan marağın dəhlizlə bağlı olduğunu gizlətməyib və yaxın zamanlarda, hətta çox (!) yaxın vaxtlarda Zəngəzur dəhlizinin açılacağını istisna etməyib. Daha dəqiq desək, XİN rəsmisi baş nazir Nikol Paşinyanın deyə bilmədiyi ifadələri məhz Paşinyanın göstərişi ilə ictimailəşdirib.




### Terrorçu "ASALA"nın məhvi gündəmdədir - səbəblər...

Yeri gəlmişkən, zaman-zaman, ötən əsrin 70-ci illərindən başlayaraq əvvəlcə Türkiyəyə, daha sonra isə Azərbaycana qarşı qanlı terror əməlləri ilə yaddaqalan "ASALA" erməni terror qruplaşmasının Ermənistan hökumətinə müharibə elan etdiyini və ona qarşı terror aktları hazırladığını əks etdirən videosunun yayılması da təsadüfi deyil. Çünki Ermənistanın rəhbərliklərinin Azərbaycanın diktəsinə və şərtlərinə əməl etmək maraqlarının artması da bu amili kifayət qədər ehtiva etməkdədir. Düzdür, "ASALA" elə sanır ki, öz istəyinə nail ola və regiondakı proseslərə təsirini göstərmək imkanına malik olduğunu terror əməlləri ilə təsdiq edə bilər, amma fakt budur ki, nə zaman o zaman, nə də siyasi kataklizmlər həminkilər deyil. Cürət edərək Azərbaycanın və regionun maraqlarına qarşı çıxış etdikləri halda bu terror təşkilatı da bütün heyəti ilə məhv ediləcək.




AKTUAL+ŞƏRH

**Afət Tahirqızı**

# Xəstəxana çıxışı

## FELYETON



- Əli, hara qaçırsan, bu gün su şikayətçiləri ilə çəkiliş edəcəyik.

-Sən Allah, qardaş, xəstəxana çıxışı var, 1-2 saat ötüşdür də məni.

-Anlamadım.

-Görüşəndə deyərəm, tələsirəm.

* * *

-Ay qız, Gülbahar, görünmürsən, haralardasan?

-Harada olacağam, evdə-eşikdə.

-Gəl, bir otur, görək, nə var- nə yox.

-Sonra, sonra, tələsirəm.

-Hara tələsirsən?

-Mağazaya dəyib, xəstəxanaya gedəcəyəm.

-Ay qız, xəstəxanada nə işin var.

-Bu gün xəstəxana çıxışı var.

* * *

-Salam, ay qardaş.

-Salam, xoş gəldiniz.

-Qardaş, sən Allah, məni qabağa sal da, yaman tələsirəm.

-Necə olsun buket?

-Olsun da, siz məndən yaxşı bilərsiniz, xəstəxana çıxışıdı.

* * *

-Salam, ay qardaş.

-Salam.

-İki saatlıq maşın kirayəsi neçəyədir?

-150 manatdır, amma ta sən qardaşsan da, 120 olsun.

-Davay, onda, saat 10-da bu ünvanda. Amma oğlandı da, çalış ona görə olsun.

-Oldu.

* * *

Beləliklə, hadisə vaqe olur, xəstəxananın doğum şöbəsinin qapısı ağzında. Burada dəstə-dəstə adamlar var. Hamı öz xəstəsini gözləyir. Lakin gərək növbəni gözləyəsən də.

Bir azdan Gülbahar qucağında nəvəsi ilə çıxır. Uşağı o qədər büküblər ki, qətiyyən görünmür. Gülbaharın ardınca əlində gül buketləri, şarlar, xonçalar, tort, şirniyyatlar olan qadın-kişilər gəlir.

Əli də bir hay-həşir salıb ki, gəl, görəsən: kənara çəkilin, çəkiliş gedir, kadrı pozursunuz. Əli bir gedir o başa, bir bu başa, göstərişlər verir, çəkir, kameranı o tərəfə çevirir, bu tərəfə çevirir.

Bir azdan uşağın anası yanında qohuməqrəba ilə çıxır. Ana da keysəriyyə ilə uşağı dünyaya gətirdiyindən yerimək qabiliyyətindən hələlik məhrumdur. Lakin bir təhər, sürünə-sürünə gəlir ki, qarşıda çəkiliş var. Əli bu kadrı o qədər dəqiqliklə çəkir ki...

Elə bu an xəstəxanaya yeni bir xəstə gətirilir. Maşında sancıdan doğranır. Lakin uşağın atası Balaxan sürücüdən xahiş edir ki, bir az gözləyin, çəkiliş gedir, kadrları poza bilərsiniz.

Eyni anda başqa bir qadın da xəstəxanaya xəstəsinə yemək gətirir, başqa bir ana bir az sonrakı xəstəxana çıxışı üçün böyük bir çata ilə gəlir, o tərəfdən bir dəstə adam əlində buketlər, şarlar gəlirlər ki, xəstələrini çıxarsınlar.

Beləliklə ətrafda Balaxanın işinin bitməsini gözləyən onlarla adam var. Lakin Balaxan doymaq bilmir, "Ə, Əli onu da çək, bunu da çək, Əli, qardaş, o qaldı, bu qaldı",- deyir. Bunu eşidən xəstə sahibləri Balaxana hücum edirlər ki, bəsdir də ta, zəhləmizi tökdün. Balaxan da qarnını qabağa verəverə, "deyəsən, gözünüz götürmür axı. Bacarırsınız, siz də çəkdirin",-deyir.

Elə bu zaman ara qarışır, mənsəb itir. Dalaşanları ayırmaq üçün xəstəxana mühafizəsi gəlir. Bunları bir-birindən ayırır. Nə isə, Əli işini başa vurmaq istəyəndə Balaxan deyir ki, Əli, hara yığışdırırsan, bizi evə qədər çəkməlisən hələ.

Əli:

-Çəkim də, nə deyirəm. Amma evə qədər bir az məbləğ artacaq. Balaxan ətrafa baxır, bayaqdan bəri buradakı yekəxanalığı qarşısında: ə, artsın da, nə olacaq. Çək, getsin.

Elə bunu deyib maşına oturmaq istəyir ki, birdən başı necə qapıya çırpılırsa, Balaxanın gözləri qalxır təpəsinə. Ağrıdan gözündən yaş ələnir, ağzının acısını da buradakıların üstünə tökür: ay sizin gözünüz çıxsın. Ay sızın gözünüzə qayçı batsın. Ə, bacarırsınız, siz də çəkdirin də. Nə təhər atdınız məni beş dəqiqənin içində.

***

Ətrafdakı nəzərlərdən isə yalnız mərhəmət oxunurdu. Hamı Balaxana Allahdan ağıl arzulayırdı...

**Mətanət Məmmədova**

PROBLEM

***Teatr və konsert... Hər ikisi insanın asudə vaxtını gözəl və səmərəli şəkildə keçirməsi üçün vasitədir. Lakin bunların bir-birindən fərqli cəhətləri də var. Teatr həm öyrədir, həm əyləndirir, konsert isə yalnız əyləndirir. Müasir dövrümüzdə konsert seçimi teatr seçimindən dəfələrlə çoxdur. İndi teatrlar da konsertlər qədər çox tamaşaçı gözlədiyi halda, konsert zalları ağzınadək dolu olur və yaxud konsert üçün seçilən hər hansı məkanda necə deyərlər, iynə atsan, yerə düşmür. Konsertə meyilimiz qonşu dövlətlərin də diqqətini cəlb edib. Çox tez-tez şəhərimizə gələn müğənni qonaqlar və onların təntənəli qarşılanması, gedib bir də qayıtmaları həm dediklərimizi, həm də bir çox başqa məqamları təsdiq edir. Bəs bizim teatr sevgimizin də yerini konsertlərin almasının səbəbi nədir? Bu barədə danışaq...***



# Bizim teatr və konsert anlayışımız...



## Çoxsaylı tamaşaçıya həsrət teatrlar...

Bizim üçün teatr nədir, ondan nə öyrənirik? Teatr oxuduğumuz bir əsərin qəhrəmanlarını canlı şəkildə təsəvvür edə bilməyimizdir. Dünənədək kitab vasitəsilə tanıdığımız qəhrəmanlarımız bir teatr tamaşasında gözümüzün qarşısındadır və bizə həmin kitabı oxuyarkən yaşadığımız hissləri canlı şəkildə yenidən təqdim edir. Teatr həm də haqqında məlumatımız olmayan bir hadisənin səhnə variantıdır. Bu zaman isə hər pərdə, hər səhnə dəyişdikcə ürək döyüntülərimiz də artır. Ona görə ki, hadisələrin necə sona çatacağı bizim üçün həddən artıq maraqlıdır...

Teatr... Səhnə işıqları-bəzən kölgəlik, bəzən qaranlıq, bəzən gur işıqlar, dəyişən səhnə dekorasiyaları... Bütün bunların fonunda istedadlı aktyorların yaratdığı obrazlar, mimika və jestlərlə qəhrəmanlarını olduğu kimi canlandıra bilmələri sanki adamı həmin dövrə aparır, o dövrün və hadisələrin qonağı olaraq nələrisə öyrənmiş olursan.





Teatr bir tarixdir, desək, yanılmarıq. Çünki ayrı-ayrı dövrlərin hadisələrini o qədər anlaşıqlı şəkildə açıqlayır ki, buna yalnız heyran qalmaq olur... Teatrların hər yeni tamaşası həm də bir kitabdır. Gedirsən teatra, tamaşa edirsən, 1,5-2 saat ərzində bir kitabı oxuyub başa çıxırsan. Teatrdan ayrıldıqda artıq bu gün nə isə öyrəndiyini anlayırsan.

Teatrlarımızın da öz tamaşaçıları var. O tamaşaçılar ki, illərdir, teatr afişalarını izləyir, tamaşalara baxır. Necə deyərlər, həyatlarını teatrsız təsəvvür edə bilmir. Lakin etiraf etməliyik ki, teatrların tamaşaçıları konsertlərinki qədər deyil. Səbəb?

## Konsertə, yoxsa?..

Onu da etiraf edək ki, artıq illərdir ki, biz əsl dəyərlərimizi dəyənləndirə bilmirik. Sanki hansısa bir qüvvə bizimlə dəyərlərimiz arasında elə bir körpü yaradıb ki, ona doğru bu körpü ilə gedərkən yarıda qırılır, biz qalırıq bu tərəfdə, dəyərlərimiz isə o tərəfdə. Nəticədə isə qaldığımız yerdə yeni bir həyata başlayırıq. Bu həyat körpünün o tərəfindəki həyatdan çox fərqlənir. Burada haqqında danışdığımız teatr sevgisi azdır, əyləncə axtaranlar, bu əyləncəni sosial şəbəkələrdə paylaşanlar, özünü reklam edənlər, bununla sanki sosial ehtiyacının ödənildiyini anlayanlar daha çoxdur.

Elə bu səbəblərdən də müasir dövrdə konsert sevgisi teatr sevgisini üstələyir. Çünki artıq əksər insan öyrənməyə, biliyini artırmağa meylli deyil, əylənməyə meyllidir. İndi əksər insan, xüsusilə də gənc nəsil hay-küyə səbəb olacaq hadisələr axtarır. Ona görə də şəhərimizdə tez-tez keçirilən konsertlərə axın-axın insan toplaşır. Onu da qeyd edək ki, biz nədənsə öz aktyor-müğənnilərimizi ya qiymətləndirmək, ya da bu barədə fikirləşmək istəmirik. Xarici müğənnilərə, nə bilim, psixoloqlara, varlanmağın yolunu bizə onunla görüşün bileti qiymətinə satanlara daha çox dəyər veririk. Bəs bunun səbəbi?

## Şöhrət xəstəliyi

Deməli, biz "şöhrət" adlı xəstəliyin illərdir ki, daşıyıcılarıyıq. Müalicə olunmağımızın yollarını kənardan nə qədər diktə etsələr də, lakin qulaqlarımıza pambıq tıxmışıq ki, eşitməyək, ya da elə bu, xəstəliyin əlamətidir ki, karlığımıza da səbəb olub. Nəticədə isə öz bildiyimiz yolla getməkdəyik. Bu yolda isə şöhrət xəstəliyi bizimlə birgə addımlayır.

Xeyli araşdırmadan sonra bu qənaətə gəlmişəm ki, biz konsertə nə üçün gedirik. Musiqi dinləməyəmi? Xeyr. Asudə vaxtımızı keçirməyəmi? Xeyr. Belədirsə əgər, o qədər xeyriyyə və ya bayram konsertləri olur ki, şəhərimizdə. Lakin bu tədbirlərdə pullu konsertlərdə olduğu qədər adam görmək mümkün deyil.

Biz o "ünlü" müğənnilərin konsertinə pul verib hələ aylar öncədən bilet alırıq ki, biletimizi sosial şəbəkələrdə paylaşaq. Konsertdən "şelfi" edək və ya fotolarımızı axın qarşısında, parıltılı işıqlar fonunda çəkib paylaşaq ki, baxın, görün, mən haradayam. Bax, məqsəd yalnız budur.

Bütün bunlarla isə konsert sevdasının yaratdığı şöhrət xəstəliyimizi bilənlərin əlinə güclü bir əsas vermişik. Onlar da ki, dayanmadan-durmadan xarici müğənnilərin konsertlərini təşkil edirlər. Əvvəlcədən sosial şəbəkələrdə reklamları gedən bu müğənnilərin konsertlərinə biletlərin qiyməti isə hamıya məlumdur: həm qapalı, həm açıq məkanda, həm qarşıda, həm arxada, həm yuxarıda, həm aşağıda... Gəlirlər, hər gün televiziya-radio və telefonlardan dəfələrlə dinlədiyimiz mahnıları başımızı aldadaraq fonoqramla "ifa" edirlər. Bizə qalan isə uzaqdan da olsa, səhnədə parıltılı, cəlbedici, bəzən yarıçılpaq paltarda həmin o sevdası ilə aylar öncədən xərc çəkib bilet aldığımız müğənninin o yana-bu yana getməsini seyr etmək və güclü "paylaşımlar" etmək olur.

## Bunun adına asudə vaxt deyirikmi?

Bəli, əsasən şənbə və bazar günlərinə təsadüf edən bu cür konsertlərin adını da asudə vaxt qoyuruq və halımızdan xeyli razı qalırıq ki, gözəl əyləndik. Lakin biz əslində bu konsertlərdə nə əylənirik, nə bir şey öyrənir, yeni nə isə görürük. Bizi məmnun edən yuxarıda da qeyd etdiyim kimi, "selfilər", fotolar, videolardır. Məhz elə bunların verdiyi əyləncəyə əylənmək, asudə vaxt deyirik.

Beləliklə, bizim teatr və konsert anlayışımız da ortaya çıxır. Teatrların ən əyləncəli məkan, asudə vaxtın ən yaxın dostu olduğunu bildiyimiz təqdirdə onu seçmirik, xaricdən gələn müğənnilərin konsertlərini, digər sahələrdən gələnlərin "ağılvermə" saatlarını baha qiymətə dinləyib, adını da qoyuruq istirahət.

Lakin onlara verdiyimiz dəyərdən bir qədər də öz aktyor və müğənnilərimizə ayırsaq, daha gözəl olmazmı?.. Bu, bizim üçün həm xeyli az vəsait hesabına başa gələr, həm də onlar da dəyər hiss etmiş olarlar. Axı "əvvəl evin içi, sonra çölü",- deyib yaxşı ki, bu günləri görməyən atalarımız...

***Mətanət Məmmədova***







# Dünyaşöhrətli səyahətçilərin Qarabağ və Şərqi Zəngəzura səfəri

***30** il erməni işğalında qalan ərazilərimizdə erməni vandalların törətdikləri vəhşiliklərin nəticəsində yurd yerləri dağdılmış, viran qoyulmuşdur. Əqli mülkiyyətimizə, maddi mədəniyyət abidələrimizə böyük ziyan dəymişdir. Bunu dünyanın istənilən bir ölkəsindən gələn və Qarabağa səfər edən dinindən, irqindən asılı olmayaraq, insanlar görmüş olur. Bu gün də işğaldan azad olunan ərazilərimizə edilən səfərlər zamanı hər qarışda rast olunan vandallığa insanlar qəzəb və nifrəti ifadə edirlər.***





Qarabağ, eyni zamanda onun ətrafında yerləşən Azərbaycan ərazilərində Birinci və İkinci Qarabağ müharibələri zamanı qismən və ya tamamilə dağıdılmış, talan edilmiş və ya hər hansı bir şəkildə zərər çəkmiş tarixmemarlıq abidələrimiz əlbəttə ki, tədricən bərpa və təmir olunur və olunacaqdır.Birinci Qarabağ müharibəsində ermənilər azərbaycanlıların geri dönməməsi üçün evləri yandırmışdılar. Ermənilər təkcə Şuşadan olan üç azərbaycanlı musiqiçi və şairin tarixi büstlərini də söküb satmışdır. Hələ 2005-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının araşdırma missiyası Füzuli şəhərinə səyahət etdikləri zaman şəhərin xarabalıq olduğunu bildirmişdilər.

### VƏTƏN MÜHARİBƏSİNDƏN SONRA EDİLƏN 9-CU SƏFƏR

Vətən müharibəsindən sonra dünya ölkələrindən ölkəmizə gələnlər öz gözləri ilə baş verən hadisələrin, vandallığın acı nəticələrini görmüş olurlar. Bu gün dünyaşöhrətli 4 əsas səyahətçilər şəbəkəsindən biri olan NomadMania klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və sair) təmsil edən 50 nəfərə yaxın geniş heyətinin Qarabağ və Şərqi Zəngəzura səfəri davam edir. Dünya səyyahlarının işğaldan azad edilən ərazilərə səfər edərək 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun böyük qəhrəmanlığı nəticəsində azad olunan məkanlar ətrafında məlumat alır, bütün reallıqları göz yaddaşlarına çevirirlər. dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels", İsveçin "Club 100" klublarının geniş tərkibdə heyətləri ötən iki ildə 8 dəfə Qarabağ və Şərqi Zəngəzura səfər edib. Bu, sayca 9-cu analoji səfərdir. Onlardan 1-i 2021-ci ildə, 4-ü 2022-ci ildə, 4-ü isə 2023-cü ildə reallaşıb.

Onlara bu səfər çərçivəsində Cəbrayıl rayonu, o cümlədən Xudafərin körpüsü barədə, həmçinin Ermənistan silahlı qüvvələrinin işğal dövründə törətdiyi vəhşiliklər və cinayət izləri haqqında məlumat verilib. Ümumdünya əhəmiyyətli tarixi hadisələrlə bağlılığına, gözəl landşaftla üzvi birliyinə, yüksək memarlıq-mühəndis həlli və sair xüsusiyyətlərinə görə Xudafərin körpüləri Azərbaycan memarlığının universal dəyərli abidələridir. Tarixən İpək Yolunun üzərində yerləşən körpülərdən biri 15, digəri 11 aşırımlıdır. XII-XIII əsrlərin yadigarı olan körpülər orta əsrlərdə Azərbaycanda yüksək sənətkarlığın inkişafından xəbər verir. Digər ərazilər kimi, bu yerlər də dağıntılara məruz qalıb, işğal illərində evlər dağıdılıb, təbiət isə məhv edilib. Burada da bir çox tarixi dini abidələr ermənilər tərəfindən təhqir edilib, məscidlər tövlə kimi istifadə olunub. Həmçinin qəbirlər qazılaraq dağıdılıb. Şərqi Zəngəzurda həyat canlanmağa başlayıb və ölkəmiz tərəfindən mühüm layihələr üzrə işlər aparılır.

### AZƏRBAYCANIN APARDIĞI NƏHƏNG VƏ GENİŞMİQYASLI QURUCULUQ İŞLƏRİNİN YARATDIĞI HEYRƏT

Dünyanın səyyah elitasının Qarabağ və Şərqi Zəngəzura bu ardıcıl səfərləri, hər dəfə heyətin daha da genişlənməsi onu göstərir ki, bölgədə qısa müddətdə Azərbaycan dövlətinin apardığı nəhəng və



genişmiqyaslı quruculuq işləri dünyada heyrətlə qarşılanır. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, Ermənistanın törətdiyi müharibə cinayətlərinin yerində nümayişi üçün də müstəsna əhəmiyyət daşıyır.Xudafərin körpüsü ilə tanışlıqdan sonra Füzuli rayonuna səfər edən xarici səyyahlar Horadiz kəndi ərazisində minatəmizləmə prosesi barədə məlumatlandırılıblar. Səyyahçılərə Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, minaların və digər sursatların təmizlənməsi işləri barədə məlumat verilib. Bildirilib ki, Füzuli rayonu mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ərazilərdən biri hesab edilir.

Xarici səyyahlar sonra ərazidən tapılan minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyiblər.

### TARİXİ FAKTLAR SİVİL DÜNYANIN GÖZÜ QARŞISINDA

Səyyahların göz yaddaşına hopan tarixi faktlar sivil dünyanın gözü qarşısında baş verib. Məlumdur ki, İslam Konfransı Təşkilatının qətnaməsində üzv dövlətlərin "işğal olunmuş Azərbaycan ərazilərində arxeoloji, mədəni və dini abidələrin (İslam abidələri də daxil olmaqla) talan və məhv edilməsindən" narahat olduqları bildirilmişdir. Azərbaycan ərazisində etnik təmizləmə məqsədi ilə Azərbaycan məscidlərinin və digər İslam ziyarətgahlarının tamamilə və vəhşicəsinə məhv edilməsinin insanlığa qarşı cinayət olduğu bir daha təsdiqlənmişdir. Qətnamədə Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində Ermənistanın İslam irsinə təcavüzü nəticəsində, o cümlədən nadir qədim əsərlərin və İslam sivilizasiyasının, tarix və memarlıq abidələrinin, məscidlər, türbələr, məzarlar, arxeoloji qazıntılar, muzeylər, kitabxanalar, rəsm sərgi salonları və hökumət teatrları və konservatoriyalar, çoxlu miqdarda qiymətli xəzinələrin və milyonlarla kitabın və tarixi əlyazmanın məhv edilməsi və qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılması işğal olunmuş Azərbaycan ərazilərində İslam irsini tamamilə məhv etmək cəhdi kimi tanınmış və Azərbaycanın özünə vurulan ziyana görə adekvat təzminat almaq hüququ təsdiqlənmişdir. İşğal dövründə məscidlər, kitabxanalar, tarixi abidələr də daxil olmaqla Azərbaycan irsinə daxil olan abidələrin ermənlər tərəfi tərəfindən dağıdılmışdır. Şuşa qəbiristanlıqları və mövcud olmuş 67 məsciddən 65-i məhv edilmişdir.

Qədim tarixə malik onlarla memarlıq və incəsənət abidələri dağıdılıb, təhqir edilib və yaxud tarixi saxtalaşdırılıb. İlk yaşayış məskəni kimi eramızdan əvvəl I minillikdə yaranan Ağdam şəhərində bəzi tarixi abidələrin tarixi eradan əvvələ gedib çıxır.

Üçoğlan kəndindəki abidələrin çoxu eneolit dövrünə aiddir. Bundan başqa, Ağdamda 14-cü əsrə aid bir sıra türbələr mövcuddur. 10-dan çox kənddə isə alban tarixini əks etdirən abidələr var. Tarixi mənbələrə istinadən deyə bilərik ki, 1868-70-ci illərdə iki minarəli və iki mərtəbəli Ağdam Cümə məscidi, XVIII əsrə aid Pənah xanın imarəti, Şahbulaq kəndində XVIII əsrə aid iqamətgah, Karvansara və bürc qalaları tarixin Ağdama bəxş etdiyi memarlıq abidələridir. Hesablamalara görə, Ağdamın tarix və mədəniyyətinə 4 milyard dollardan çox ziyan dəyib. Bu məbləğin artacağı istisna edilmir.




### AZƏRBAYCAN ÖZ MİLLİ İRSİNƏ SAHİBDİR

Ağdam rayonu ərazisindəki Qutlu Musa türbəsi baxımsızlıqdan qəzalı vəziyyətə düşmüş, türbənin fasadlarını bəzəyən unikal divar rəsmləri boyanaraq məhv edilmiş, interyerindəki oyma naxışlı daş plitələri isə dağıdılmışdır. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən abidələr şəhərin 90-cı illərdə ermənilər tərəfindən bombardiman edilməsi zamanı ciddi zədə almışdır. 1992-ci ildə şəhərin ermənilər tərəfindən işğal edilməsindən sonra burda olan İslam memarlıq nümunələrinin hamısı tamamilə və ya qismən dağıdılmışdır.

XIII əsrə aid Gəncəsər monastırı 1990-cı illərdə erməni silahlı birləşmələri tərəfindən məşvərət yeri və silah anbarı kimi istifadə edilmiş və monastırın fasadına qismən zərər dəymişdir. 2011-ci ildən etibarən monastırın fasadlarının memarlığına müdaxilə edilmiş, kompleksi əhatə edən qala divarları müasir daşlarla üzlənmişdir. 1992-ci ildə Laçın rayonunun işğal edilməsi ilə ermənilərin nəzarəti altına keçən Sisərnəvəng monastırı 1999–2000-ci illərdə əsaslı təmir edilmiş, bu zaman abidənin dam örtüyü, fasadları və interyerinə ciddi dəyişikliklər edilmişdir. 2020-ci il atəşkəs bəyanatına əsasən Laçın rayonu ərazisini tərk edən ermənilərin monastırın həyətində yerləşən VI–IX əsrlər və sonrakı dövrlərə aid bədii təsvirli daşlar və xaç daşları aparmalarını əks etdirən fotolar sosial mediada yayımlanmışdır.

Dünya əhəmiyyətli tarix-memarlıq abidələri arasında ən çox ziyan çəkəni e.ə. II minilliyin sonlarına aid olan və Orta Tunc dövrü insanlarının yaşayış izlərini daşıyan Üzərliktəpə arxeoloji abidəsidir. 1993-cü ildən ermənilərin işğalı altında olan abidə ərazisi işğal dövründə mütəmmadi olaraq hər il ermənilər tərəfindən yandırılmışdır. Mil düzününün arxeoloji cəhətdən tədqiq olunmuş yeganə qədim yaşayış yeri Üzərliktəpədir. Bu abidə Ağdam şəhərindən şərqdə, coğrafi cəhətdən əlverişli mövqedə yerləşir. 1954-cü ildə Üzərliktəpədə arxeoloji qazıntı işləri aparılıb. Qazıntılar nəticəsində məlum olub ki, hazırda yüksəkliyi 6-7 m. olan Üzərliktəpə təxminən eradan əvvəl II minilliyin sonunda cəmi 3,5 m hündürlüyündə olmuşdur. Həmin dövrdə Üzərliktəpənin üstündə yerli sakinlər yaşayış məskəni salmışdılar.

Mənbələrdən məlumdur ki, 1965-ci il qazıntıları zamanı Üzərliktəpədən "hərəkət edən ocaq", yəni gildən düzəldilmiş və bir yerdən başqa yerə aparılması mümkün olan manqalvarı kürəcik də tapılmışdır. Buradan aşkar edilmiş maddi mədəniyyət qalıqları içərisində gil qablar xüsusilə çoxluq təşkil edir. Üzərliktəpədən aşkara çıxarılmış daha bir tapıntı elmi baxımdan son dərəcə maraqlı olub, sakinlərin dini ideologiyasını öyrənmək üçün böyük əhəmiyyət kəsb edir. Bu tapıntı qadın bütüdür. Üst təbəqədə daşdan düzəldilmiş ocağın içərisindən tapılmış büt, yerli əhali arasında bütpərəstliyin yayıldığını sübut edir. Ümumiyyətlə, Azərbaycan ərazisində hələ Eneolit dövründə müşahidə edilən bu dini təsəvvür sonralar inkişaf edərək antik dövrdə bir növ hökmran rol oynamışdır. Bu dövrdə qadın bütləri çoxluq təşkil edir ki, bu da ananın nəslartırma rəmzi və ya ona həyatın başlanğıcı kimi baxılması ideyasından irəli gəlmişdir. Arxeoloqlar müəyyən etmişlər ki, Üzərliktəpədə yaşayış eradan əvvəl I minilliyin sonunda kəsilmişdir.

Tariximizin daş yaddaşı olan bu və ya digər abidələrimiz erməni təcavüzkarlığı nəticəsində dağıdılıb, təhqir edilsə də, Azərbaycan öz milli irsinə sahibi olduğunu Zəfəri ilə dünyaya bəyan etdi. Artıq tarixi abidələrimiz öz görkəmlərini alırlar.

***Zümrüd BAYRAMOVA***

# İlqar Məmmədov əbləhlər məclisində özünə yer qazanmağa çalışır

***Daxili çəkişmələr, arzu etmədikləri proseslər müxalifət düşərgəsində təmsil olunan dağıdıcı partiyaların sədrlərini çıxılmaz vəziyyətə salıb. Durumun son dərəcə ağır olması səbəbindən partiya funksionerləri nə etmək istədiklərini, hansı addımları atmağa çalışdıqlarını və açıqlamalarını hansı yöndə vermək lazım olduqlarını belə unudublar. Sadəcə, gic toyuq kimi ora-bura vurnuxub, dəxli olmayan məsələlərdən söhbət açır, qeyri-ciddi ideya və təkliflərlə çıxış edirlər. Bu da müxalifət partiyaların da ağır olan problemlərinin daha da dərinləşməsinə gətirib çıxarır.***





Çünki sağlam, ağıllı idarəetmə olmadığından və partiyanın fəaliyyət istiqaməti ölkə miqyaslı maraqlara uyğunlaşdırılmadığından uduzan və zərəri görən sıravi üzvlər olur, təbii ki, partiyalarda ciddi zərbəyə məruz qalırlar. Dəfələrlə Müsavatın və AXCP-nin qopmalara məruz qalması və ətraflarında qalmaqalların yaranması məhz rəhbərliyin düzgün və məqsədyönlü siyasət apara bilməməsi ilə bağlıdır.

### Uduzan və zərbə altına düşən sıravi müxaliflər olur

Görünən və təsdiq olunan fakt ondan ibarətdir ki, dağıdıcı partiyaların üzdəniraq sədrləri səhvlərini təkrarlamaqda davam edirlər. Yəni, onlara dəyən şillənin haradan və nəyə görə dəydiyini hələ də aydınlaşdırmırlar. AXCP sədri Əli Kərimli sonu necə olacağını müəyyənləşdirmədən iyunun 24-də AXCP-nin tələm-tələsik 7-ci qurultayını keçirdi və özünü yenidən sədr elan etdi. Bu azmış kimi çoxdan arxivə göndərilməli olan Nurəddin Məmmədlini AXCP Ali Məclisinin sədri təyin etdi. Kollegial orqanlara "seçki" təşkil edib, özünə yaxın dost, tanışını İdarə Heyətinin, Ali Məclisin üzvləri seçildiyini bildirdi. Söz yox ki, bu tip şou narazılıq yaratmalı idi, belə də oldu. Ədliyyə Nazirliyi AXCP-nin 24 iyun tarixli 7-ci qurultayının nəticələrinin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmasından imtina edib. Ədliyyə Nazirliyi imtina qərarı AXCP üzvlərindən birinin qurultay nəticələrinin etibarsız hesab edilməsi tələbinə dair iddia ərizəsinin Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi tərəfindən mümkün hesab edilməsi və həmin qərardadın Ədliyyə Nazirliyinə daxil olması ilə əsaslandırılıb. Təbii ki, Ə.Kərimlinin AXCP-yə şəxsi firması kimi baxması "Siyasi partiyalar haqqında qanun"un tələblərinə ziddi. Yəqin ki, Nəsimi rayon Məhkəməsi bu kimi halları nəzərə alaraq AXCP üzvlərindən birinin qurultayın nəticələrinin etibarsız hesab edilməsi tələbinə dair iddiasını təmin edəcək.

Sədrlərinin yanlış siyasətlərinin nəticəsi olaraq fəlakətli vəziyyətlə üzləşən partiyalar yalnız AXCP və ya Müsavat deyil, digər dağıdıcı yön sərgiləyən partiya sədrləri də Əli Kərimlinin, Arif Hacılının səhvlərini təkrarlayırlar. Misal olaraq Real partiyasının sədri İlqar Məmmədovun anormal fəaliyyəti, yanlış açıqlamaları ilə özünü və partiyadaşlarını rüsvay etməsini göstərmək olar. Bu məxluq siyasətə gələndən sonra cibi sevinənlərdən olduğundan ağına-bozuna baxmadan sərsəm və ironiya ilə qarşılanan açıqlamalarını səsləndirməkdən əl çəkmir. Elə bir vəziyyət yaradıb ki, təmsil olunduğu düşərgədə də onu məsxərəyə qoyub, fitə basırlar. Bu barədə geniş müzakirə açmaq fikrindən uzağam, çünki sosial şəbəkələrə nəzər yetirilsə sıravi müxalifətçilərin İ.Məmmədovu necə daşa basdıqlarını görmək olar.

### İlqar Məmmədov siyasəti münəccimlik peşəsinə dəyişib

Bu adamın, yəni İ.Məmmədovun əsas fəaliyyəti ağa qara demək, Avropa institutlarına xoş gəlmək üçün Azərbaycanın uğurlarına yalnız mənfi fikirlər söyləməkdir. Yada salmaq lazımdır ki, bir qədər əvvəl siyasi partiyaların xətti İ.Məmmədovu da işğaldan azad edilən ərazilərə səfəri təşkil olunmuşdur. Bu məxluq qürurverici anları lentə alıb, fəxarət hissi ilə sosial şəbəkələrdə paylaşmaqdansa, kəllə-mayallaq açıqlamalarla çıxış edir, Ağalı kəndi haqqında birbaşa Avropadakı pozucu dairələrin maraqlarına xidmət edən videolar paylaşırdı. İndi də özünü ağıllı göstərmək üçün Seçki Məcəlləsinə dəyişikliklərin edilməsi təklifini səsləndirir. İ.Məmmədovun yazdığı statusdan: "Bu 21 partiya özünü buraxıb YAP-a birləşməsə, ya da vahid siyahılı seçki blokunda seçkiyə getməsə, belə gedişat ancaq seçki saxtakarlığı planlarından xəbər verəcək. Ötən il dediyimi də təkrarlayım: YAP-ın proporsional sistemə keçid niyyətinin əsas səbəbi nədir? Bəli, nisbətən düzgün səsvermədə majoritar dairələri əminliklə udacaq YAP-çıların az olması. Buna görə YAP proporsional seçkiyə getmək istəyir. Hakimiyyətin reytinqli bir neçə simasını siyahının başına qoysa, vətəndaşlar bu siyahıya səs verər. Beləliklə, populyar olmayan digər yapçılar da onların hesabına parlamentdə yer tutar. İndi daha da aydın görünür ki, referenduma bağlı bu sadə tənliklər YAP-ın partiya-seçki sisteminə dair sirlərini açıq deyə, referendum söhbətini ictimai sahədə, hələlik, bir qədər səngitmək əmri gəlib".

Bir sözlə, başdan ayağa mənasız boşboğazlıqdan ibarət olan statusdan belə başa düşülür ki, İ.Məmmədov seçki sistemi ilə bağlı ağalarından xüsusi tapşırıq alıb. Hətta referendum keçiriləcəyi və seçki sisteminə dəyişikliklərin olacağı barədə cəfəng fikirlər qeyd edir. Yoxsa seçki-filan müzakirə edilmədiyi bir məqamda, onun referendumdan danışması, majoritar və proporsional seçki sistemindən bəhs etməsinə nə ehtiyac var? İlk olaraq İ.Məmmədova xatırlatmaq lazımdır ki, müvafiq dövlət qurumunun nümayəndəsi ölkədə referendumun keçirilməsinin nəzərdə tutulmadığını bəyan edib. Deməli, seçki sistemində hansısa dəyişikliklərin və əlavələrin edilməsi planlaşdırılmır. Digər tərəfdən, İ.Məmmədov 21 partiyanın özünü buraxıb YAP-a birləşməsindən qeydlər edir. Əvvəla, Cənubi Qafqazın ən böyük partiyası olan YAP-a hansısa siyasi partiyanın birləşməsi həmin partiya təmsilçilərinə yalnız uğur gətirə bilər. Zaman-zaman belə birləşmələr də olub. 2021-ci il də keçirilən YAP-ın qurultayında 8 partiya xalqın partiyası olan Yeni Azərbaycan Partiyasına birləşdi. Ona görə də, İ.Məmmədovun hay-küy qaldırıb mənasız qaşınması əhəmiyyətsizdir.

***İ.ƏLİYEV***

ANALİZ

## "Haram və günahlardan çəkinməliyik"



**QURUM RƏSMİSİ AÇIQLADI**

"Haram qazanca dinimizdə birmənalı olaraq qadağa qoyulur". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.Onun sözlərinə görə, insan günah yolla başqasının haqqını mənimsəyib qazanc əldə etməməlidir: "Dünyada belə faktlar var. Biz bunu müşahidə edirik. Haram yolla qazanılan haqsız qazancdan biri rüşvətdir. Yetimin, yoxsulun, kimsəsizin haqqını təcavüz edənlər az deyil. Buna bənzər hadisələr çoxdur. Bunların hər biri haram və günahdır. Allah bizi halal qazanca dəvət edir. Peyğəmbərimiz də öz hədisində buyurur ki, halal yolla qazanc əldə edin, haramlardan çəkinin. Peyğəmbər öz həyatında insanların halala meyl etməsi üçün çoxlu nümunələr göstərmişdir. Xüsusən də Peyğəmbərin vida xütbələrinin birində ən ciddi şəkildə onun dönə-dönə təkrar etdiyi haramlardan çəkinmə hədisidir.

Faizə pulun verilməsi də haramdır. Bununla hər iki tərəf günah qazanmış olur. İmkan sahibləri möhtaclara faizə pul verərdi. Onun müqabilində də artıq pul tələb edərdi. Bu çox günahdır. Borc verməksavabdır. Allah bunun üçün insanlara mükafat verir. Amma təəssüflər olsun ki, bəziləri insanların sıxıntısından istifadə edir. Onlar görür ki, bir insan məcbur qalıb borca düşüb, bu halda faiz məsələsini qaldırır. Bu səbəbdən insanlar arasında dava-dalaş olurdu. Hətta faciələr də baş verirdi.

Haram və günahlardan çəkinməliyik. Əgər çəkinməsək, cavabını həm bu dünyada, həm də qiyamət məhkəməsində verəcəyik. Allah bizi halallara yönəltsin və haramlardan uzaq etsin. Allah hər birimizə halal ruzi nəsib etsin".

***Ayşən Vəli***

## Saxta məlumatlarla NECƏ MÜBARİZƏ APARMALI?

"Saxta xəbərlərlə mübarizə "Media haqqında" qanunla aparılmalıdır. Mətbuat Şurasının qəbul etdiyi jurnalistlərin etik davranış qaydaları da bu qəbildən əhəmiyyətlidir. Təbii ki, hüquq-mühafizə orqanları da saxta xəbərlərin yayılmasının qarşısını almaq üçün ciddi nəzarət işi aparırlar". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu deyib.

Ekspert bildirib ki, xəbər yayıldıqda ilk öncə mənbə ilə maraqlanmaq lazımdır: "Çünki mötəbər mənbə ilkin mənbə hesab olunur. Eyni zamanda xəbəri kimin yaydığı mühüm əhəmiyyət kəsb edir. Çalışıb, ciddi sayt və qəzetlərin, portalların xəbərlərini izləmək lazımdır. Çünki biz bu məlumatları qanuna söykənərək yazırıq. Xəbər yayıldıqda onun doğruluğunu müəyyən etmək üçün bir neçə mənbədən dəqiqləşdirmək lazımdır".

***Səbinə Hüseynli***

**MEDİA EKSPERTİ DANIŞDI**



# Pambıq əkirik, amma pambıq məhsullarını xaricdən alırıq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.***

***Pambıq geyimlər əksəriyyətimizin qarderebunda az-çox yer tutan geyimlərdir. 100 faiz pambıq tərkibli geyimlər nisbətən baha olsa da, çalışırıq ki, ən azı övladımızın geyimlərini təmiz pambıq tərkibli alaq. Doğrudur, bu sağlamlıq üçün əlverişlidir, amma qiymətdə nisbətən baha başa gəlir. Pambıq parçalar dərimizə nəfəs almağa şərait yaradan, dözümlü və keyfiyyətli materialdır. Pambıq əmtəə olmaqla yanaşı, dünyada, demək olar ki, yarısı qadın olan 32 milyon istehsalçının da dolanışığını təmin edir.***



### Ümumdünya Pambıq Günündə pambığın rolu

2019-cu ildə Pambıq Kvarteti (Benin, Burkino Faso, Çad və Mali) kimi tanınan Mərkəzi Afrikaya məxsus dörd pambıq istehsalçısı Ümumdünya Ticarət Təşkilatına (ÜTT) Ümumdünya Pambıq Gününü qeyd etməyi təklif edib. Bundan sonra sonra Ümumdünya Pambıq Günü, pambıqla bağlı məlumatların paylaşılmasına və fəaliyyətlərin işıqlandırılmasına, bu əkin növünün yayılmasının təşviqinə səsləyən bir gün qeyd olunmağa başladı. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Pambıq Gününü tanıması ilə bu xüsusi gün, inkişaf etməkdə olan ölkələrin pambığa və pambıq mənşəli məhsullara çıxış ehtiyacı barədə məlumatlılığı artırmaq imkanı verir.

Bu il Birləşmiş Millətlər Təşkilatı Ümumdünya Pambıq Günündə "Təsərrüfatdan modaya: pambığın hamı üçün əlçatan olması" teması ilə kampaniyalar təşkil edib. Bu yolla təşkilat pambıq sektorunun perspektivliyini artırmağı hədəfləyir. Bu həmçinin, pambığın iqtisadi inkişafda, beynəlxalq ticarətdə və yoxsulluğun azaldılmasında oynadığı mühüm rola diqqət çəkməyə xidmət edir. 2023-cü il Ümumdünya Pambıq Günü tədbirləri davamlı və inklüziv iqtisadi artımın və hər kəs üçün münasib, əlçatan iş yerlərinin vacibliyinə diqqət çəkir. Çünki, qaydalara əsaslanan, ayrı-seçkiliyə yol verməyən, ədalətli, inklüziv, proqnozlaşdırıla bilən və şəffaf pambıq ticarəti sistemi, bütün dünyada yüz milyonlarla ehtiyaclı insanı dolanışıq vasitələri ilə təmin etmək üçün ən uyğun açardır.

### Pambıq etibarlı və təhlükəsiz əkin hesab edilir

Pambığın əhəmiyyəti, pambıq məhsullarının fonunda böyük ticarət zəncirinin formalaşmasındadır. İnkişaf etmiş iqtisadiyyatlar üçün kommersiya əhəmiyyətli olan pambıq, həm də zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin əhalisi üçün təhlükəsiz əkin növüdür. Pambıq, kiçik istehsalçılardan tutmuş günəmuzd işçilərə, xüsusilə də qadınlaradək əksər təsərrüfatçının üstünlük verdiyi əkin növüdür. Pambıq ən yoxsul ölkələr üçün gəlirli məşğulluq mənbəyidir. Ən yoxsul bölgələrdə il ərzində cəmi bir ton pambıq orta hesabla beş nəfərin yaşayış təminatı deməkdir.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) inkişaf etməkdə olan ölkələrdə məhsuldarlığı artırmaq və pambıq dəyər zəncirində daha çox imkanlar yaratmaq üçün texniki dəstək təklif edir, bu istiqamətdə müxtəlif mexanizmlərin tətbiqinə şərait yaradır. Bununla belə, sektoru xammal istehsalından kənara çıxarmaq və pambığa daha çox dəyər qatmaqla fermerlər üçün yeni gəlir imkanları yaratmaq üçün yeni investisiyalara ehtiyac var.



### Azərbaycan pambıq istehsalını artırır

Ötən il ölkəmizdə pambıq üzrə orta məhsuldarlıq 30,92 sent/ha təşkil edib. Başa çatmış mövsümdə ölkədə 100 min hektardan artıq sahədə pambıq əkilib. 2021-ci il mövsümü ilə müqayisədə əkin sahələrinin həcmi dəyişməsə də, tarlalardan 35 min 259 ton daha çox məhsul yığılıb. Ümumi məhsuldarlıq göstəricisi isə əvvəlki illə müqayisədə 2,42 sent/ha artıb. 2022-ci ildə pambıqçılıq mövsümündə sahələrdən 322 min 300 ton kondisiya çəkidə məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib.

Məhsuldarlığın öncəki ilə nisbətən artmasında sahələrdə düzgün aqrotexniki qulluğun aparılması əsas göstərilir. Eyni zamanda tarlalarda zərərvericilərə qarşı vaxtında tədbir görülür, yığım prosesi demək olar ki, müasir pambıqyığan kombaynlar vasitəsilə həyata keçirilir, əl ilə toplama yox deyiləcək qədər azalıb.

Eyni zamanda dövlət dəstəyinin genişləndirilməsi fermerlərin pambıq əkininə marağının artmasına səbəb olub. Aqrar Subsidiya Şurasının qərarına əsasən, tədarük məntəqələrinə təhvil verilən pambığa görə məhsul subsidiyasının məbləği hər ton üçün 100 manatdan 170 manata qaldırılıb.

Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində 2022-ci ildə şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla iki dəfə artırılıb. Əvvəl 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alınırdısa, 2022-ci ildə təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilirdi. Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ötən il Azərbaycan 175,5 milyon dollar dəyərində 77 min 580 ton pambıq lifi (mahlıc) ixrac edib. Bu, 2021-ci illə müqayisədə həcm baxımından 39 faiz, dəyər baxımından isə 16,8 faiz azdır. Ötən il 33,1 milyon dollar dəyərində 8 min 623 ton pambıq iplik xaricə göndərilib. Bu isə 2021-ci illə müqayisədə həcm baxımından 2 dəfədən çox az deməkdir. Dəyər baxımından isə 43 faiz aşağıdır.

### Pambıqçılığa təşviq, fermerə subsidiya

Doğrudur, ölkəmizdə pambıq xammalı istehsalı ilə yanaşı, pambıqçılığın dəyər zəncirinin bütün mərhələləri üzrə istehsal həcmində də artım baş verib. Belə ki, 2003-2022-ci illər ərzində pambıq mahlıcı istehsalı 2,3 dəfə, pambıq ipliyi istehsalı 5,2 dəfə, pambıq parça istehsalı isə 6,8 dəfə artıb. Həmçinin qeyd edək ki, ölkədə pambıq yağı istehsalı 2015-2022-ci illər ərzində 2,4 dəfə artıb və 5,8 min tona çatıb.

Azərbaycanda pambıqçılığın inkişafına, pambıq istehsalı ilə emalı arasında münasibətlərin bazar iqtisadiyyatına uyğun tənzimlənməsinə, pambıq və pambıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə, pambıqçılığın yüngül və yeyinti sənayesinə inteqrasiyasına hüquqi və iqtisadi zəmin yaradılması, xam pambıq və pambıq məhsullarının dövriyyəsi ilə əlaqədar münasibətlərin tənzimlənməsi məqsədilə "Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli Qanunu qəbul edilib.

Ölkədə pambıqçılıq məhsullarına tələbatın ödənilməsi, pambıq emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, pambıq məhsullarının ixracının artırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsi və bu sahənin inkişafının stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli 3082 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Həmçinin Aqrar Sığorta Fondu pambıq bitkisinin dövlət dəstəyi ilə sığortalanması təmin edir, həmçinin kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsullarının sığortası üzrə sığorta haqqının 50 faiz hissəsinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi müəyyən edilib.

### Pambıq ölkəsi Azərbaycan pambıq məhsullarını idxal edir

Bütün bunlara rəğmən, biz hələ də ən xırda pambıq məhsullarını belə xaricdən idxal edirik. Qulaq təmizləmə çöplərindən tibbi pambığa, pambıq tərkibli geyimədək bir çox məhsul ölkəmizə idxal gəlir. Hazırda pambıq ipliyindən parça istehsalına keçməklə bağlı çox az müəssisə tərəfindən bir sıra tədbirlər həyata keçirilir, türk şirkətləri ilə müqavilə imzalayaraq parça və digər pambıq məhsullar istehsalına bşaşlayan kiçik sahibkarlar da var. Bu yeni iş yerlərinin açılması, yerli məhsulların dünya bazarına çıxması, xarici investisiyaların, iri şirkətlərin ölkəyə cəlb olunması kimi amillərə imkan yaradır və iqtisadiyyatın inkişafına zəmindir.

Təəssüf ki, pambıqdan son məhsulun əldə olunması üçün ölkəmizdə müvafiq infrastruktur hələ qurulmayıb. Azərbaycanda 24 pambıq emalı zavodu fəaliyyət göstərir ki, onların 23-nün illik istehsal gücü 465 min tondur. Əslində istehsal olunan pambığın hamısını emal etməyə texniki güc var. Amma mahlıcın ipliyə çevrilməsi üçün ölkəmizdə potensial zəifdir. Fabriklərdə pambıq mahlıcından "Ring", "Open End" üsulu ilə müxtəlif cür iplik istehsalı nəzərdə tutulur.

"Ring" üsulu ilə istehsal edilən pambıq-poliester iplik daha zərif və yumşaq olduğu üçün uzun lifli pambıqdan alınır və daha bahalı məhsuldur. Bu məhsuldan əsasən köynəklər istehsal olunur. "Open End" üsulu ilə alınan iplik isə daha kobud olduğundan əsasən cins və digər üst geyimlərin istehsalında istifadə olunur. Əldə olunan ipliyi parçaya, parçanı paltara çevirmək potensialı ölkəmizdə məhdud saydadır.



Doğrudur, hazırda Azərbaycanda trikotaj məhsulları müəssisələri var, Şəki tekstil, Şəki-İpək, Gilan Tekstil parkında toxuculuq fabrikləri fəaliyyət göstərir. Hesablamalara görə onların istehsal gücü daxili tələbatı tam qarşılamaq, həmçinin xaricə də məhsul ixrac etmək imkanındadır. Lakin təəssüf ki, Azərbaycanda istehsal olunan pambıq yüksək keyfiyyətli geyim istehsalı üçün uyğun deyil. Bu, pambığın orta lif uzunluğu, qalınlığı, təmizliyi və sair göstəricilər baxımından hesablanır.

Lakin Azərbaycanda əvvəllər olmuş kütləvi toxuculuq sənayesinin - yataq dəstləri, dəsmalların, bez, çit, mahud parçaların və sair pambıq məhsullarının istehsalının yenidən geniş bərpası mümkündür. Çünki hazırda istehsal etdiyimiz pambığın keyfiyyəti buna imkan verir. Bununla belə, hazırda ölkəmizdə az da olsa alt və üst geyimi, yataq ağları istehsalı var.

***Lalə Mehralı***

ARAŞDIRMA

SON SƏHİFƏ
SƏS
7 noyabr
2023-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# Dünyada ilk bioloji bank yaradılıb

***İspaniyanın Milli Xərçəng Araşdırma Mərkəzi dünyada ilk bioloji bank yaradıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, bank metastatik beyin nümunələrini saxlamaq üçün yaradılıb.***

Bu bank beyin xərçəngi xəstələrinin metastaz nümunələrini qəbul edir. Bunun üçün insan beyninin yüngül nümunələri düzgün rütubət və temperaturu saxlamaq üçün maye ilə doldurulmuş xüsusi qablara yerləşdirilir. Qabların içərisində yüksək səviyyədə sterillik və biotəhlükəsizlik çirklənmənin qarşısının alınması və beyin hüceyrələrinin strukturunun qorunmasını təmin edir.

Bu nümunələr daha sonra xərçəngə nəzarət üsullarını təkmilləşdirmək üçün tədqiq ediləcək. Bundan əlavə, bu nümunələr xərçənglə mübarizəyə yönəlmiş müxtəlif dərmanların təsirini öyrənmək üçün klinik tədqiqatlarda istifadə oluna bilər. Hazırda siçanlar üzərində belə təcrübələr aparılır, lakin insan hüceyrələrini də öyrənmək son dərəcə vacibdir.

# Şuşada avtomobil yanıb, 5 nəfər ölüb

***Şuşa rayonunda 5 nəfərin ölümü ilə nəticələnən yol qəzası baş verib. SİA-nın xəbərinə görə, hadisə rayonun Daşaltı kəndində qeydə alınıb. Elvin Abbasovun idarə etdiyi "Nissan Navara" markalı avtomobil idarəetmənin itməsi nəticəsində yoldan çıxaraq aşıb və avtomobildən yanğın baş verib. Nəticədə avtomobildə olan sərnişinlər Kamil Qaybalıyev, Rəşad Atakişiyev, Şahbaz İsayev, Eldəniz Həsənov, Hümbət Hümbətov hadisə yerində yanaraq ölüblər.***

Sürücü isə ağır yanıq xəsarətləri ilə Füzuli rayon mərkəzi xəstəxanasına yerləşdirilib.



DİN-in Mətbuat xidmətinin Bərdə regional qrupunun baş inspektoru, polis kapitanı Aslan Qiyaslı APA-ya faktı təsdiqləyib. Bildirib ki, baş vermiş yol-nəqliyyat hadisəsi ilə əlaqədar Şuşa Rayon Polis Şöbəsində araşdırmalara başlanılıb. Hazırda iatintaq davam etdirilir.

Qeyd edək ki, qəzaya düşənlər işğaldan azad edilən ərazidə fəaliyyət göstərən yol tikinti şirkətlərinin birinin əməkdaşlarıdır.

# Cəmiyyət zorakılığa məruz qalmış şəxslə necə davranmalıdır?

***“Cinsi zorakılığa məruz qalmış qız və oğlanlara mütləq şəkildə psixoloji dəstək verilməlidir. Bu iş aparılmadığı təqdirdə zaman keçdikcə cinsi zorakılığa məruz qalmış şəxslər, xüsusən qızlar həm gələcəkdə ailə qurmaqda, həm təhsil almaqda, həm də cəmiyyətə inteqrasiya olmaqda çox böyük çətinlik yaşayırlar". Bu sözləri SİA-ya psixoloq Elnur Rüstəmov deyib.***



## AYDINLIQ GƏTİRİLDİ

Psixoloq sözlərinə davam edərək bildirib ki, ona görə də bu hallarda psixoloji reabilitasiya işi aparmaq lazımdır: "Bəzən cinsi zorakılığa məruz qalmış şəxslər bunu ailə və yaxınlarından gizlədirlər. Səbəb isə cinsi zorakılığı edən şəxs tərəfindən qorxudulması və davamlı olaraq onlara cinsi zorakılıq paralel psixi zorakılıq tətbiq olunmasıdır. Adətən zorakılıq törədən şəxslər zorakılığa məruz qoyduğu şəxsi hadisəni kiməsə deyəcəyi təqdirdə onu və dediyi adamları da öldürəcəyi ilə hədələyir. İkinci bir tərəfdən isə ailə bunu gördüyü təqdirdə bununla bağlı heç bir tədbir görmür və bəzən buna görə qızın özünü də danlayır və bir qisim ailələrdə belə hallar yaşananda düşünürlər ki, uşaqdır, böyüyəndə yadından çıxacaq. Nəticədə psixoloji dəstəyi unudurlar”.

*Ləman Sərraf*

# ŞOK: Dilan və Engin cütlüyünü 30 il həbs cəzası gözləyir!

Türkiyə mətbuatı bir neçə gün bundan öncə saxlanılan türkiyəli sosial media fenomeni Dilan Polat və həyat yoldaşı Engin Polatla bağlı vacib məlumat dərc edib. "Haberler.com"un yazdığına görə, əgər onların günahı təsdiqlənsə cütlüyü 30 ilə qədər həbs cəzası gözləyir.

"İddia edilən cinayətlər çox ciddidir. Maddəyə görə çirkli pulların yuyulmasının cəzası 3-7 il arasıdır. Amma burada təşkilat qurulması var. Bunun cəzası 6-14 il arasıdır. Başqa günahları da var. Əgər hamısı dəqiqləşsə, 30 il azadlıqdan məhrum edilə bilərlər" - saytın yazısında belə deyilir.



Qeyd edək ki, Dilan Polatın bacısı Sıla Doğu, Engin Polatın qardaşı Kürşat Polat, mühasib Beyza Ekici, maliyyə işlər məmuru Ahmet Gün də saxlanılanlar arasındadır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4000